# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 207 (6171) 20 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Haqqa, ədalətə gedən yolun QALİB LİDERİ!

Prezident İlham Əliyev: "Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində"



Bax 2

## Hikmət Hacıyev: "Vətən müharibəsində qalib olduğumuz kimi, koronavirusla mübarizədən də qalib çıxmalıyıq"

Bax 5



Koronavirusa qarşı Azərbaycana vaksinin gətirilməsi istiqamətində müvafiq addımlar atılır. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin...

## Əli Əhmədov: "Möhtəşəm zəfərlər tarixdə rəmzləri ilə yaşayır"



"Qarabağın 30 il davam edən erməni işğalından azad edilməsi Azərbaycan xalqının çoxəsrlik tarixinin ən möhtəşəm hadisələri sırasında layiqli yer tutur". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Yeni Azərbaycan...

Bax 6

## Operativ Qərargah: Azərbaycanda xüsusi karantin rejiminin müddəti dekabrın 28-dək uzadılıb



Hazırda dünyada yeni növ koronavirus (COVID-19) infeksiyasına yüksək yoluxma dinamikası müşahidə olunmaqdadır. Bu səbəbdən virusun geniş yayılmasının qarşısının alınması üzrə müvafiq tədbirlər həyata keçirilir...

Bax 5

## PKK terrorçusu: "Biz Qarabağa qədər gedərək, ermənilərə kömək etmişik"



Hələ sentyabr ayının 27-dən əvvəl Türkiyə və digər ölkə mətbuatları yazırdılar ki, PKK/YPG terror təşkilatının silahlıları müxtəlif vasitələrlə Ermənistana axın edir, bu vasitə ilə Qarabağda silahlı təxribatlar törətmək üçün istifadə olunurlar...

Bax 7

## Bu gün Qarakənd faciəsindən 29 il ötür

Bax 9



Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi. 1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbiləşdirilmiş dəstələri tərəfindən vurulan...

## Yeni günün mübarək, azad AĞDAM!




Bax 11

## Yeni qayda sahibkarlara nə verəcək?



Bax 12

## Erməni vandalizmi sərhəd tanımır



Bax 14

# Haqqa, ədalətə gedən yolun QALİB LİDERİ!



*Prezident İlham Əliyev:*
*“Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində”*

***2020-ci il, noyabrın 10-da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyv cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazmaqla, haqqa, ədalətə gedən yolun QALİB LİDERİ Ali Baş Komandan, Prezident İlham Əliyev TARİXİ QƏLƏBƏ NİDASINI qoydu. Və Vətən Müharibəsinin 44-cü günü - noyabrın 10-da Azərbaycan- Rusiya Prezidentləri və Ermənistan baş nazirinin imzaladığı müharibənin dayandırılması haqqında TARİXİ MÜQAVİLƏ, şanlı qələbəmizin müqaviləsi, ərazi bütövlüyümüzün təmin olunması qələbəsinin qəbul olunması ilə xalqımızın 30 illək həsrətinə son qoyudu.***

Noyabr ayının 16-da isə öz Liderinin, xalqının həsrətini çəkən o torpaqlarımızı ilk ziyarət edən Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.



### “Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır”

Bəli, 16 noyabr çox böyük qürurverici tarixi gündür - Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən ümumi uzunluğu 101,5 kilometr olan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50 milyon manat ayrılıb. Sərəncamda deyilir ki, Qarabağ bölgəsində erməni təcavüzünə məruz qalmış bütün torpaqlarımız, o cümlədən Qarabağın tacı olan Şuşa 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsinin Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatması nəticəsində işğaldan azad edilib. 27 il müddətində işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, təbii sərvətlər talan edilib, tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulub, fərdi və çoxmənzilli yaşayış evləri yerlə yeksan edilib. Bu gün Azərbaycan prezidenti Dədə-baba yurdlarından didərgin salınmış insanların işğaldan azad olunmuş ərazilərə qayıdaraq məskunlaşmasının, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin tərtibi, sənaye və kənd təsərrüfatı müəssisələrinin, sosial təyinatlı obyektlərin inşası, habelə əhalinin mənzil-məişət məsələlərinin həlli ilə bağlı müvafiq təkliflər hazırlanır və artıq bir sıra yaşayış məntəqələrində bu sahələrdə zəruri işlərin həyata keçirilməsi ilə bağlı sərəncamlar verir. Elə Füzuli rayonundan Şuşa şəhərinə yolun inşasına startın verilməsi deyilənlərin təsdiqidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış olaraq, dövlət başçısı bildirib ki, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür: “Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır. Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir”

### “Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir!”

Prezident İlham Əliyev onu da bildirib ki, Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək: “Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir!”.

“Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən - Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir”,- deyən dövlət başçısı bu yolun çox rahat və geniş olacağını bildirib.



Ardı Səh. 3

# Haqqa, ədalətə gedən yolun QALİB LİDERİ!

*Prezident İlham Əliyev:*
*“Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində”*




Əvvəli Səh. 2

## “Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik”

“Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər”.

Dövlət başçısı bildirib ki, bütün dəymiş ziyan birlikdə hesablanacaq: “Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası - bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Nə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” “Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın”. Bunu Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə Cəbrayıl rayonuna səfər edərkən deyib. Dövlət başçısı bildirib ki, bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir: “Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq. Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub. Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik”.



## “Erməni mifini, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq”

Prezident İlham Əliyev işğaldan azad edilmiş Füzuli şəhərində Azərbaycan bayrağının qaldırılması mərasimində bildirib ki, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. Onlar bundan sonra rəzalət damğası ilə yaşayacaqlar.

Dövlət başçısı deyib ki, o illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı: “Ona görə torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır. Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyllər inkişaf etməyə başlamışdır”.

Prezident İlham Əliyev qeyd edib ki, bu gün Azərbaycan ordusu dünya miqyasında güclü ordular sırasındadır: “Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi. Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq”.

## “Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur”

“Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur”, - deyən dövlət başçısı bildirib ki, Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır: “Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir. Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik - münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı”. Prezident İlham Əliyev onu da bildirib ki, müharibənin ilk günlərindən Ermənistan rəhbərliyinə xəbərdarlıq etsək də anlamadı və sona qədər getdik də: “Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik”.

## “Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur”

Ali Baş Komandan İlham Əliyev çıxışı zamanı onu da bildirib ki, otuz il ərzində həm Ermənistan rəhbərliyinin, onların havadarlarının, ermənipərəst, azərbaycanafob qüvvələrin ortalığa atdıqları müxtəlif uydurmaları məhv etdik: “Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Ardı Səh. 4

# Haqqa, ədalətə gedən yolun QALİB LİDERİ!



## Prezident İlham Əliyev: "Biz qayıtmışıq, durmuşuq burda, öz doğma torpaqlarımızda, Cəbrayıl şəhərində"

Əvvəli Səh. 3

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar".

"Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi".

"Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir", -deyən dövlət başçısı bildirib ki, bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi: "Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!"

### "Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik"

Prezident İlham Əliyev onu da vurğulayıb ki, biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik: "Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq".



### Prezident İlham Əliyevin Xudafərin körpüsündə Dövlət bayrağını qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıla səfər zamanı Xudafərin körpüsünə baş çəkiblər. Prezident İlham Əliyev cənablarının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi: "Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın. Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq. Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 il yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub. Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik".

### "Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq, ermənilər isə bax, bunları ediblər, dağıdıblar"

"Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", -deyən Prezident İlham Əliyev bugünkü tarix heç vaxt silinməyəcək: "Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Bəli, uğur dalınca uğur, zəfər dalınca zəfər bizi müşayiət etdi. 30 il həsrətində olduğumuz Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa rayonlarının və bir çox yaşayış məntəqəsinin düşməndən geri alınması qələbəyə gedən yolumuzu daha da tezləşdirdi, bu döyüşdə müzəffər Azərbaycan ordusu şanlı tarix yazdı. Şanlı tarixin yazılmasının əsas memarı- Ali Baş Komandan, QALİB SƏRKƏRDƏ İlham Əliyevdir. 30 il Qalib Liderini, xalqı həsrətlə gözləməyəcək. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

## Misir qəzeti Azərbaycan Prezidentinin üçrəngli bayrağımızı işğaldan azad edilmiş torpağımızda qaldırmasından yazıb

Misirin "Almasryalyoum" qəzetində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin üçrəngli bayrağımızı işğaldan azad olunmuş Füzuli rayonunda qaldırması barədə xəbər dərc edilib.




AZƏRTAC xəbər verir ki, yazıda dövlətimizin başçısının Azərbaycan xalqının yenilməz, Ordumuzun müzəffər olmasını bütün dünyaya göstərdiyimiz haqqında sözləri yer alıb. Qeyd olunub ki, İlham Əliyev 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi tarixi Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına heç bir vaxt imkan verilməyəcəyini bildirib.

Qəzetin xəbərində Qarabağda heç bir statusdan söhbət gedə bilməyəcəyini vurğulayan Prezident İlham Əliyevin çıxışından aşağıdakı sitat verilib: "Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar".

## İRNA agentliyi Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri ilə bağlı material yayıb

İranın İRNA xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilən Cəbrayıl rayonuna səfəri ilə bağlı material yayıb. AZƏRTAC xəbər verir ki, materialda Prezident İlham Əliyevin Araz çayının sahili ilə, tarixi Xudafərin körpüsünün yanından keçərək işğaldan azad edilən Cəbrayıl şəhərinə getdiyi qeyd olunub.




Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Cəbrayıl rayonunun tam bərpa olunacağını bəyan edib. Bildirib ki, ermənilər Cəbrayıl rayonunu işğal etdikdən sonra buranı darmadağın ediblər. Lakin Azərbaycan dövləti yalnız Cəbrayıl rayonunu deyil, işğaldan azad olunan bütün rayonları bərpa edərək orada müasir infrastruktur yaradacaq. Materialda Prezident İlham Əliyevin "Azərbaycan-İran sərhədi dostluq sərhədi olacaq" sözləri xüsusi vurğulanıb.

## Hikmət Hacıyev: "Vətən müharibəsində qalib olduğumuz kimi, koronavirusla mübarizədən də qalib çıxmalıyıq"



Koronavirusa qarşı Azərbaycana vaksinin gətirilməsi istiqamətində müvafiq addımlar atılır. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 19-da keçirilən brifinqdə deyib.

Hikmət Hacıyev bildirib: "Dünyada koronavirus vaksininin istehsalı ilə bağlı gedən proseslər yaxından izlənilir. Beynəlxalq səviyyədə təsdiq olunacaq vaksinin Azərbaycana gətirilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən tədbirlər həyata keçirilir. Ayrı-ayrı hallar istisna olmaqla, Silahlı Qüvvələrimizdə yoluxma kütləvi formada baş verməyib. Bu istiqamətdə ayıq-sayıqlığın davam etdirilməsi vacibdir."

Hikmət Hacıyev qeyd edib ki, bizim yaralı əsgərlərimiz var və onların koronavirusa yoluxmasının qarşısının alınması da əsas vəzifələrdən biridir. Onların sağlamlığını qorumaq üçün bu, vacibdir. Səhiyyə sistemimiz iki cəbhədə fəaliyyət göstərir. Ona görə də bu kimi zərurətləri, artım templərini nəzərə alaraq, Operativ Qərargah bir sıra qərarlar qəbul edib.

Bəzi koronavirus xəstələrinin özlərini evdə müalicə etməsi barədə danışan Prezidentin köməkçisi bildirib: "Bir sıra xəstələr həkimlərin köməyi ilə özlərini koronavirusdan evdə müalicə etməyə çalışırlar. Həmin xəstələr ağırlaşmış formada xəstəxanaya müraciət edirlər ki, bu da həm onların özünü, həm də həkimləri çətin vəziyyətdə qoyur".

Hikmət Hacıyev bildirib ki, dünyada koronavirusa yoluxma sürətlə artmaqdadır. Azərbaycanda da artım tendensiyası ciddi narahatlıq doğurur. Ölüm sayında da artımın olması ciddi narahatlıq yaradır: "Yaralı əsgərlərimizin müalicəsi də səhiyyə sistemi qarşısında ciddi tapşırıqlar qoyur. Hərbi müalicə mərkəzlərində koronavirusa yoluxmanın qarşısının alınması üçün ciddi tədbirlər görülür. Şəxsi heyət arasında yoluxma halları özünü xüsusi büruzə verməyib. Hərbi çağırışçılar da xüsusi testdən keçirilir ki, virus hərbi hissələrdə yayılmasın. Vətən müharibəsində qalib olduğumuz kimi koronavirusla mübarizədən də qalib çıxmalıyıq".

## "Əl-Cəzirə" kanalı işğaldan azad edilmiş Füzuli şəhərindən süjet yayımlayıb




Noyabrın 18-də xarici jurnalistlər işğaldan azad olunmuş Füzuli şəhərinə səfər zamanı orada Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Media nümayəndələri arasında "Əl-Cəzirə" kanalının müxbiri də olub. SİA xəbər verir ki, kanal Füzuli şəhərindən süjet yayımlayıb.

Süjetdə bildirilir ki, demək olar bütün Füzuli şəhəri dağıntılar içindədir. Azərbaycan hökuməti dəymiş ziyanı qiymətləndirmək üçün xarici ekspertləri dəvət edəcəyini və törətdiyi müharibə cinayətlərinə, vandalizm aktlarına görə Ermənistanı beynəlxalq məhkəməyə verəcəyini bildirib. Süjetdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə müsahibə də yer alıb.

Prezidentin köməkçisi bildirib ki, bu dağıntılar Ermənistanın Füzuli şəhərini vandalizmə məruz qoymasının nəticəsidir. Füzuli işğaldan əvvəl Azərbaycanın ən gözəl şəhərlərindən biri idi. Azərbaycan artıq şəhərsalma işlərinə başlayıb. Daha sonra biz Füzuliyə və işğaldan azad olunmuş digər ərazilərə məcburi köçkünləri qaytaracağıq. Beynəlxalq ictimaiyyət bununla da Ermənistanla Azərbaycan arasındakı fərqi görəcək. Hamı Ermənistanın dağıdıcı fəaliyyətinin və Azərbaycanın quruculuq işlərinin bir daha şahidi olacaq. Təbii ki, Ermənistan vandalizm və insanlığa qarşı müharibə cinayəti əməllərinə görə məsuliyyət daşımalıdır. Biz beynəlxalq məhkəmələrə müraciət edəcəyik. Hikmət Hacıyev işğaldan azad edilmiş ərazilərdə heç bir infrastrukturun qalmadığını, hətta bir binanın belə olmadığını bildirib. O, bütün bu ərazilərin ermənilər tərəfindən minalandığını diqqətə çatdırıb.

## Operativ Qərargah: Azərbaycanda xüsusi karantin rejiminin müddəti dekabrın 28-dək uzadılıb

***Hazırda dünyada yeni növ koronavirus (COVID-19) infeksiyasına yüksək yoluxma dinamikası müşahidə olunmaqdadır. Bu səbəbdən virusun geniş yayılmasının qarşısının alınması üzrə müvafiq tədbirlər həyata keçirilir, bir çox ölkələr sərt karantin qaydaları tətbiq edir.***

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, Azərbaycanda virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılır. Bununla belə, son günlərdə COVID-19 virusuna yüksək yoluxma dinamikası qeydə alındığından, aşağıdakı qadağaların tətbiq edilməsinə qərar verilib:




Sərt karantin rejimi tətbiq edilən Şəki, Lənkəran şəhərləri, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarında bu tədbirlərin müddəti 2020-ci il 7 dekabr saat 06:00-dək uzadılır;

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılır;

2020-ci il 21 noyabr saat 00:00-dan 28 dekabr saat 06:00-dək bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyəti dayandırılır;

2020-ci il 21 noyabr saat 00:00-dan 28 dekabr saat 06:00-dək şənbə və bazar günləri həyati əhəmiyyət kəsb edən fəaliyyət növləri, o cümlədən aptek və ərzaq mağazaları istisna olmaqla digər bütün sahələr üzrə yerində xidmətlər dayandırılır;

2020-ci il 21 noyabr tarixindən etibarən xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur. Maskalardan istifadə qaydalarına nəzarət rejimi daha da sərtləşdirilir.

Xatırladaq ki, müvafiq yerlərdə tibbi maskadan istifadə olunmaması və ya tələb olunan normalara uyğun taxılmaması qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır.

Dünyadakı, o cümlədən Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq yüksək risk qrupuna daxil olan yaşı 65-dən yuxarı şəxslərin zərurət yaranmadan yaşayış yerlərini tərk etməmələri tövsiyə olunur.

Həmçinin özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlarda da işçilərin say həddinin 30 faizədək azaldılması və digər əməkdaşların məsafədən iş rejiminə keçirilməsi tövsiyə edilir. Bir daha bütün şəxsləri COVID-19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə ciddi riayət etməyə, zərurət olmadıqda kənar şəxslərlə təmaslardan yayınmağa, qapalı və açıq məkanlarda sosial məsafəyə əməl etməyə çağırırıq.

## Əli Əhmədov: “Möhtəşəm zəfərlər tarixdə rəmzləri ilə yaşayır”



“Qarabağın 30 il davam edən erməni işğalından azad edilməsi Azərbaycan xalqının çoxəsrlik tarixinin ən möhtəşəm hadisələri sırasında layiqli yer tutur”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov özünün “facebook” səhifəsində paylaşıb.

YAP-ın Sədr müavinin sözlərinə görə, xalqların və dövlətlərin həyatında xüsusilə mühüm əhəmiyyət kəsb edən möhtəşəm qələbələrin şərəfinə abidələrin yaradılması ənənəsi qədim dövrlərə gedib çıxır: “Tarixdə mövcud olmuş və müasir dövlətlərin hər birinin qazandığı uğurlar və hərbi zəfərlər onların şərəfinə inşa edilmiş möhtəşəm abidələrdə yaşayır. Eləcə də, Qarabağın azad edilməsi uğrunda müharibədə qazanılan şanlı hərbi zəfər müasir və gələcək tariximizin şərəf səhifəsi kimi yaddaşlarda və möhtəşəm xatirə abidələrində əbədi yaşayacaq. Düşünürəm ki, çox yaxın zamanlarda Bakıda gözəl qələbə parkı salınacaq, möhtəşəm zəfər obeliski (yaxud zəfər tağı) inşa ediləcək, ən böyük və abad küçələrdən biri Qələbə xiyabanı adlandırılacaq. Ordumuzun və xalqımızın möhtəşəm zəfərinin böyük tarixi əhəmiyyətini vurğulayan və paytaxtımızın yeni, onun gözəlliyini daha da artıran simvolları meydana gəlmiş olacaqdır.

Möhtəşəm qələbənin tarixi dəyərinin əks etdirilməsi məqsədilə qızıl xatirə sikkələrinin buraxılması da, güman edirəm ki, diqqətdən kənarda qalmayacaqdır.

Böyük tarixi şəxsiyyət zirvəsinə yüksələn lider olmadan xalqın həyatını zənginləşdirən möhtəşəm hadisələri və qələbələri təsəvvür etmək mümkün deyil. Ölkəsinin taleyində müstəsna rol oynamış, xalqına xüsusilə böyük qələbələr bəxş etmiş liderlərin şərəfinə şəhərlər salınması ənənəsi min illər boyu yaşamaqdadır. İskəndəriyyə, Sankt-Peterburq, Vaşinqton şəhərləri adlarını daşıdığı tarixi şəxsiyyətlərin müstəsna xidmətlərini əks etdirir, insanların onlara hörmət, ehtiram və minnətdarlığını ifadə edir. Siyahını sonrakı tarixi dövrlərdən, həta müasir günlərimizdən nümunələrlə artırmaq mümkündür.

Qarabağın azad edilməsi ilə nəticələnən zəfər yürüşü Azərbaycan vətəndaşları tərəfindən xalqımızın son yüzilliklər ərzində qazandığı ən möhtəşəm hərbi uğur hesab edilir. Tarixi qələbəmizin başlıca və həlledici müəllifi olan Prezident, Ali Baş Komandan İlham Əliyevə xalqın hədsiz məhəbbəti və minnətdarlığı hazırki milli düşüncənin aparıcı ideyasıdır. Onun dövlətimizin bu günü və gələcəyi baxımından müstəsna əhəmiyyət kəsb edən tarixi xidmətlərini əhalimiz ən səmimi istək və duyğularla layiqincə qeyd etməyi ürəkdən arzulayır. Bu məqamda yüzillərlə tarixdə yaşayan və bu günlərimizə gəlib çatan ənənəyə Azərbaycanda müraciət etməyin tam zamanı olduğunu düşünürəm.

Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, erməni işğalından azad edilmiş doğma Qarabağın yenidən qurulması dövlətimizin yaxın illərdə qarşısında duran əsas vəzifədir. Heç şübhə yoxdur ki, Qarabağ təkcə Azərbaycanda deyil, bəlkə də dünyada ən müasir, ən rahat məskunlaşma məkanı olacaq, burada gözəl şəhərlər salınacaq, yeni və inkişaf etmiş infrastruktur yaradılacaq. Dövlət məmuru kimi deyil, bir vətəndaş olaraq inanıram ki, azad edilən torpaqlarımızda müqəddəs Qarabağ savaşında misilsiz hərbi uğurumuzun və onun müəllifi cənab İlham Əliyevin şərəfinə böyük, müasir və gözəl şəhərin salınması həm 30 illik işğala son qoymuş qələbəmizin tarixi əhəmiyyətinin, həm də müzəffər Ali Baş Komandanın müstəsna xidmətlərinə görə xalqın ona minnətdarlığının layiqli ifadəsi olardı. Bu şəhər eyni zamanda keçmiş və gələcək tarix nöqteyi-nəzərindən qədim Qarabağ diyarının Azərbaycan xalqına mənsubluğunun daha bir simvoluna çevrilərdi. Torpaqlarımızın azadlığı uğrunda savaşda qazanılan möhtəşəm zəfərimiz də, onun əsas müəllifi Ali Baş Komandan İlham Əliyev də buna layiqdir”.

***Ceyhun Rasimoğlu***

## Erməni könüllüləri internet forumlarda cəbhədə baş verənlər barədə yazırlar



Erməni könüllüsü internet forumlarda cəbhədə baş verənlər barədə yazırlar. AZƏRTAC xəbər verir ki, müxtəlif ölkələrdən Qarabağa vuruşmağa gəlmiş ermənilərin cəbhədə baş verənlər barədə internet forumlarında yazdıqları çoxlarında nifrət və istehza doğurur.

Rusiyanın “Moskovskiy komsomolets” qəzeti belə döyüşçülərdən biri, “LostArmour” forumunda “Andrewbek1974” adı altında iştirak edən erməninin Qarabağ döyüşləri barədə yazılarını dərc edib.

Qəzet yazır ki, İkinci Qarabağ müharibəsində Suriya, Livan, İraq, Fransa və Rusiyanın erməni diasporlarının nümayəndələri də iştirak ediblər. Onlar müharibə başa çatdıqdan sonra forumlarda bölüşdükləri yazılarda erməni tərəfinin hərbi sursat və rabitə vasitələri ilə pis təchiz olunması, komandirlər tərəfindən başlı-başına buraxılması, rabitə vasitələrinin çatışmaması və digər problemləri dilə gətirirlər.

“LostArmour” forumunun erməni iştirakçısının sözlərinə görə, Ermənistanda könüllülərə hərbi geyim verilməyib, zirehli jiletləri isə özləri almalı olublar, onlara köhnə Kalaşnikov pulemyotu, Makarov tapançası və Kalaşnikov avtomatları paylanıb.

Şuşa döyüşlərinə qatılmış “Andrewbek1974” forumçu yazır ki, bölüklərinə Hamlet adlı şəxs rəhbərlik edib. Onun “Artsax ordusu”nun “mayor”u olduğu deyilsə də buna heç kim əmin deyildi. “Mayor”un kriminal mənşəli biri olduğu şübhəsiz idi. Bölüyə isə əslində yerli sakin, Birinci Qarabağ müharibəsinin iştirakçısı Aşot rəhbərlik edirdi. “İlk döyüşümüzdə isə donuzlara qalib gəldik” deyən erməni könüllüsü xatırlayır ki, oktyabrın 23-də gecə növbətçiləri atəş açmağa başlayıblar, digərləri də onlara qoşulub. Səhər açılanda isə döyüş “meydanı”nda iki donuz leşi tapıblar. Məlum olub ki, bütün gecəni bölük iki donuzu atəşə tutub və “qalib” gəlib.

## Bəhruz Quliyev: Bu zəfəri bizə yaşatdığınız üçün Sizə minnətdarıq!



Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyədən, Avropa ölkələrindən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadən “Səs” Media Qrupun rəhbəri Bəhruz Quliyevin Ali Baş Komandana ünvanladığı məktubun mətnini təqdim edir:

Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan!

Sizi torpaqlarımızın işğaldan azad edilməsi münasibətilə ürəkdən təbrik edirəm. Qələbəmiz Ali Baş Komandan kimi Sizin dəqiq və vaxtında verdiyiniz əmrləri icra edən müzəffər Ordumuzun rəşadəti sayəsində təmin olundu. Azad olunan torpaqlarımızın hər bir qarışı bizim üçün çox əzizdir, ona görə ki, bu böyük Qələbədə Sizin uzun illər apardığınız müdrik diplomatik, iqtisadi və hərbi strategiyanız, Ordumuzun zəhməti, şəhidlərimizin qanı və xalqımızın dəstəyi vardır.

Cənab Prezident, mən birinci Qarabağ müharibəsinin iştirakçısı və şahidi olmuşam. Rəhbərsiz, sərkərdəsiz müharibənin acı sonluğunu hər kəs bilir və biz 30 il bundan öncə bu faciəni yaşadıq, torpaqlarımızı itirdik. Bu Vətən müharibəsini birincidən fərqləndirən odur ki, bu gün Ulu Öndərin vəsiyyətini, ideyalarını həyata keçirən, əməlləri ilə özünü sevdirən bir lider və öz liderinə güvənən, onun arxasında duran bir xalq birliyi vardır.

Böyük sərkərdə! Siz Azərbaycan tarixində yeni bir şanlı səhifəni qızıl hərflərlə yazdınız və xalq qəhrəmanı kimi tarixdə, insanların qəlbində ömürlük məskən saldınız. Bu Qələbə nəticəsində ölkəmizin bütövlüyü ilə yanaşı, həm də xalqın qaliblik hisslərini bərpa etdiniz. Milli Lider! Biz də media nümayəndəsi olaraq fəaliyyətinizi dünyaya çatdırmaqdan qürur duyur və bu zəfəri bizə yaşatdığınız üçün Sizə minnətdarıq.

## Fransanın “Le Monde” qəzeti azərbaycanlı köçkünlərin işğaldan azad edilmiş doğma torpaqlarına qayıtmaq arzularından yazır


A Bakou, le rêve de retour des déplacés du Haut-Karabakh

La fin de l'exil pourrait se faire attendre pour six cent mille Azerbaïdjanais désireux de retrouver leurs villages détruits

Fransanın məşhur “Le Monde” qəzetində Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasından sonra yüz minlərlə azərbaycanlının doğma torpaqlarına qayıtmaq arzularından bəhs edən məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə erməni işğalı nəticəsində torpaqlarından didərgin düşmüş insanların öz evlərinə qayıtmaları ilə bağlı fikirləri yer alıb.

Qeyd edilir ki, məcburi köçkünlər 26 il ərzində öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayıblar. Onların Azərbaycan Prezidenti İlham Əliyevin erməni silahlı qüvvələri tərəfindən dağıdılmış şəhər və kəndləri yenidən bərpa etdirəcəyinə inandıqları bildirilir.

“Prezidentimiz hər şeyi yenidən quracaq və biz qayıdacağıq”, - deyə 78 yaşlı Ülkər Allahverdiyeva qeyd edir. O, daha sonra deyir: “Hökumətimizə etibar etmişəm və bu gün də etibar edirəm. Qələbəyə görə Prezident İlham Əliyevə təşəkkür edirik və torpaqlarımıza qayıtmağımızı gözləyirik”.

Məqalədə bildirilir ki, işğal altında olan ərazilərinin azad edilməsi hər zaman Azərbaycanın dövlət siyasətinin tərkib hissəsi olub. Xalq daim doğma yurduna qayıtmaq arzusu ilə yaşayıb. 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağın və onun ətrafında yerləşən, yalnız azərbaycanlıların yaşadıqları yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, aparılan etnik təmizləmə nəticəsində 600 mindən çox azərbaycanlı doğma yurdundan didərgin salınıb.

Məqalədə Qarabağdan didərgin düşmüş Allahverdiyevlər ailəsi başlarına gələn faciələrdən də bəhs edirlər. Onlar erməni silahlı qüvvələrinin axşam saatlarında kəndlərinə daxil olduğunu, evləri tanklardan atəşə tutduğunu, insanların ayaqyalın günlərlə çöllərdən keçərək qurtulmağa çalışdıqlarını xatırlayırlar.

“Biz, sadəcə, maşına minməyə vaxt tapdıq. Əşyalarımızı, pasportlarımızı götürməyə belə vaxtımız olmadı. Sadəcə, evimin qapısını açarla bağladığımı xatırlayıram. Qaçan zaman avtomobilimiz işləmədi, üç gün piyada getməli olduq. Qarabağda yüzlərlə azərbaycanlının yaşadığı kəndlər kimi, bizim Horovlu kəndimiz də tamamilə dağıdıldı”, - deyə Ülkər Allahverdiyeva bildirir. O, əlindəki şəkli göstərərək deyir: “Bunlar mənim həyat yoldaşım, oğlum və qardaşım oğludur. Döyüşüb şəhid olublar”.

“Hər kəs o torpaqlara qayıdıb iş tapacaq, biz oralarda yeni həyat qurmaq istəyirik”. Bu sözləri isə Ülkər Allahverdiyevanın qızı Mehriban Quliyeva 2016-cı ildə hökumətin yenidən qurduğu Cocuq Marcanlı kəndini misal gətirərək deyir. Ülkər Allahverdiyevanın tibb texnikumunda təhsil alan 25 yaşlı nəvəsi Günay isə deyir: “Bakını sevirəm, amma mən tibb bacısı işləyəcəyim Horovluya gedəcəyəm”.

Ermənilərin işğal etdikləri kəndlərdə qəbiristanlıqları dağıtmalarına qəzəblənən Rəhman isə bunları deyir: “Onlar mənim atamın cəsədini qazıb çıxarıblar. Qəbir daşlarını sındırıqları bir yana qalsın, qəbirləri buldozerlə qazmağa və cəsədlərin qalıqlarını çıxarmağa nə ehtiyac var idi?!”. Bu xəbəri Rəhmana onun qardaşının Azərbaycan Ordusunda xidmət edən əsgər oğlu verib. O, Horovluya gedib və kəndin hazırkı vəziyyətini əmisinə təsvir edib. Rəhman ruhdan düşmədiyini, kəndə qayıdıb orada vaxtilə tikdirdiyi ikimərtəbəli evi yenidən tikdirmək arzusunda olduğunu bildirir. Onun qonşusu Elçin Hüseynov da ermənilərin bu hərəkətindən qəzəblənir: “Ermənilər otuz ildir torpaqlarımızı talan etdilər. İndi gedəndə evləri yandırırlar. Onlar məhv etdikləri hər şeyə görə cavab verməlidirlər”. Yazıda o da qeyd edilir ki, Qarabağda ərazilərin böyük hissəsi minalanıb və təhlükəsiz yaşamaq üçün əvvəlcə bu ərazilər minalardan təmizlənməlidir.

# Vüqar Rəhimzadə: "Xalqımız sabitliyimizin, təhlükəsizliyimizin təminatçılarına daim güvənir"



"2020-ci il tarixə Azərbaycanın şanlı Qələbəsi ili kimi yazılmaqla yanaşı, COVID-19-la mübarizənin dərinləşdiyi, bu öldürücü virusun insanların sağlamlığını təhdid dövrü kimi də xarakterizə olunacaq. Hər iki cəbhədə mübarizə birliyimizi, həmrəyliyimizi vacib amil kimi önə çəkərək "Biz birlikdə güclüyük!" çağırışının real həyatda öz əksini tapması ilə diqqət çəkir. Kimliyindən, siyasi əqidəsindən, siyasi mənsubiyyətindən, vəzifəsindən, peşəsindən asılı olmayaraq hər kəs bu birliyə öz töhfəsini verməyə səy göstərir. Hər iki mübarizədə, ümumiyyətlə, ölkəmizdə sabitliyin, təhlükəsizliyin təminatında asayiş keşikçilərinin, təhlükəsizlik orqanları əməkdaşlarının rolu danılmazdır. Onlar hər zaman dövlətimizi, dövlətçiliyimizi, təhlükəsizliyimizi qoruyur, Vətənə, xalqa xidmət missiyasını şərəflə yerinə yetirirlər. Necə ki, həkimlərimiz onlardan şəfa gözləyən xəstələrin qayğısını çəkmək üçün gecəli-gündüzlü fədakarlıq göstərir, eynilə Azərbaycan polisi, təhlükəsizlik orqanlarının əməkdaşları da həyatlarını bütün hallarda riskə ataraq sabitliyin, təhlükəsizliyin təminatçıları kimi şərəfli vəzifənin öhdəsindən layiqincə gəlirlər". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, bu gün Azərbaycan, əgər belə demək mümkündürsə, iki cəbhədə müharibə aparır. Hər iki müharibə ilk növbədə ölkədə sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsinə, ayıq-sayıq olmağa çağırışlar edir: "Hər kəs bu reallığın şahidi oldu ki, bu çətin günlərdə dövlətin, xalqın təhlükəsizliyinin təminatı, insanların sabit, təhlükəsiz şəraitdə yaşaması prioritetdir, bu missiyanı yerinə yetirən qurumlar üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlirlər. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin fikirlərinə istinad etsək, dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar kadrlar və müasir iş üslubu olsun. Ümummilli Liderin bu fikirləri Azərbaycanın hazırkı reallıqlarında öz aydın ifadəsini tapıb. Azərbaycanın dövlət təhlükəsizliyi və xüsusi xidmət orqanlarının əməkdaşları peşəkarlıq və müasir iş üslubu ilə çalışaraq xalqımızı və müstəqil dövlətimizi xarici qəsdlərdən və düşmən qüvvələrin təxribatlarından qətiyyətlə qoruyur, milli təhlükəsizliyin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınmasında, beynəlxalq terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, dini ekstremizmə qarşı mübarizədə xalqımıza və dövlətçiliyimizə sədaqət və əsl vətənpərvərlik nümunələri göstərirlər. O cümlədən bu gün Azərbaycan polisi dövlətə və xalqa sədaqət kimi ali prinsipləri rəhbər tutaraq insanların təhlükəsizliyinin və ölkənin sabitliyinin keşiyində ayıq-sayıq dayanır. Onların əməyi hər zaman dövlətimizin başçısı İlham Əliyev tərəfindən yüksək dəyərləndirilir. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 44 gün davam edən Vətən müharibəsində döyüş meydanında tarix yazan Azərbaycan Ordusunun döyüş qabiliyyəti və maddi-texniki təminat baxımından beynəlxalq standartlara tam cavab verməsi, təkmilləşməsi istiqamətində uğurlu siyasət yürüdən dövlətimizin başçısının həyata keçirdiyi islahatlar sayəsində təhlükəsizlik orqanlarının fəaliyyəti də yeni müstəviyə yüksəlib. Bu təkmilləşmənin, yeniləşmənin nəticələri istər COVID-19-la mübarizə, istərsə də İkinci Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyünün, təhlükəsizliyinin, sabitliyinin yüksək səviyyədə təmin olunmasında özünü qabarıq şəkildə göstərir. Vətən müharibəsinin gedişində Azərbaycan sabit, təhlükəsiz ölkə kimi mövqeyini möhkəmləndirməklə yanaşı, tolerant ölkə olduğunu da bir daha təsdiqlədi. Yeni dövrün tələblərinə və dövlət idarəetmə strukturunu təkmilləşdirməyə yönələn islahatlar beynəlxalq antiterror koalisiyasının fəal üzvlərindən olan Azərbaycanda həmişə olduğu kimi, 44 gün davam edən Vətən müharibəsi dövründə də sabitliyin təmin olunmasına, beynəlxalq erməni terrorizminə qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsinə geniş imkanlar açdı".

Baş redaktor diqqəti Azərbaycan polisinin fədakarlığına da yönəldərək bildirib ki, sərt karantin dövründə sosial şəbəkələrdə təqdim olunan videogörüntülərdə asayiş keşikçilərinin insanların qayğıları ilə yaşayaraq humanizm prinsiplərinə əsaslanmaqla onlara necə böyük dəstək göstərdikləri öz əksini tapır: "Gündən-günə virusa yoluxanların, həyatını itirənlərin sayının artması məhdudlaşdırıcı tədbirlərin həyata keçirilməsini bir zərurətə çevirir ki, bu da öz növbəsində Azərbaycan polisini daha da ayıq-sayıq olmağa çağırır. Bəzi rayonlara gediş-gəlişə qoyulan qadağalar keçid məntəqələrində polislərin iş funksiyasının gərginliyini artırır. Polisimiz virusa yoluxma riskini azaltmaq üçün xüsusi karantin rejiminin tələblərinə ciddi riayət olunmasına nəzarət edir, qanunla müəyyən olunmuş qaydada, öz səlahiyyətləri çərçivəsində bu istiqamətdə müvafiq addımlar atır. Beləliklə, mübaliğəsiz demək olar ki, Azərbaycan polisi pandemiya dövrünün şəksiz qəhrəmanları sırasındadır".

"Bu gün Azərbaycan şanlı qələbəni qeyd edir" söyləyən baş redaktor bildirib ki, koronavirus infeksiyasının coğrafiyasının genişləndiyi indiki məqamda Azərbaycan Ordusunun tarix yazması, tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa etməsi insanların öz sevinclərini paylaşmaq üçün küçə və meydanlara axışması ilə nəticələnir ki, bu da hazırkı dövrdə böyük riskdir. Amma Azərbaycan polisi hər kəsin sevincinə şərik olmaqla yanaşı, ictimai asayişi qorumaq üçün üzərinə düşən vəzifəni də layiqincə, heç bir xoşagəlməz hallar yaşanmadan yerinə yetirməyə səy göstərir: "Dövlətimizin başçısı İlham Əliyevin 27 sentyabr 2020-ci il tarixli Fərmanına uyğun olaraq, hərbi vəziyyətlə əlaqədar ölkəmizdə komendant saatı elan olundu. Bakıda tətbiq edilən komendant saatı ilə əlaqədar paytaxtın müxtəlif ərazilərində polis postları qurulub və asayiş keşikçilərimiz hərbi vəziyyətin tələblərinə uyğun olaraq öz vəzifə səlahiyyətlərini yüksək peşəkarlıqla və vicdanla yerinə yetirirlər".

Vüqar Rəhimzadə bildirib ki, hazırda işğaldan azad olunan torpaqlarımıza Böyük Qayıdışla əlaqədar olaraq hazırlıq işləri görülür: "Dövlətimizin, xalqımızın təhlükəsizliyinin, ictimai asayişin təminatçıları böyük qürur hissi ilə bu qayıdışa hazırlıq işlərinə öz töhfələrini verməyə səy göstərirlər. Birliyimizin, həmrəyliyimizin sayəsində əldə edilən tarixi Qələbə bir daha bu reallığı təsdiqlədi ki, xalqın və dövlətin yüksək səviyyədə təhlükəsizliyi mühitinin formalaşması, ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün qorunması, xalqımızın təhlükəsizliyinin daha etibarlı müdafiəsi Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin əsasını təşkil edir. Xalqımız möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə, rəşadətli Azərbaycan Ordusu ilə, həmçinin təhlükəsizliyimizin, sabitliyimizin təmin olunmasında xüsusi rolu olan təhlükəsizlik orqanları və Azərbaycan polisi ilə fəxr edir. Birliyimiz yeni-yeni hədəflərə nail olmağımıza, ölkəmizin gələcək inkişafına daha böyük imkanlar açır".

# Hikmət Babaoğlu: "Bəzən insanlar yalan informasiyalara özlərini inandırırlar"



***"Ümumiyyətlə informasiya çox əlahiddə bir vasitədir. Çünki informasiya bizim sosial davranışlarımızı və kimliyimizi təyin edir. Sosialogiyada, etno-sosialogiyada, politologiyada, cəmiyyətdə ümumi ictimai rəyi, əhval-ruhiyyəni, davranışları, ətraf mühitdə baş verən hadisələri, dərketmə hadisəsini informasiya ilə izah edir. Yəni biz hər hansı siyasi məsələyə mövqeyimizi müəyyən edərkən beynimizdə formalaşan informasiya bazasına əsaslanaraq və ona uyğun olaraq mövqe nümayiş etdiririk. Ona görə də informasiya təyinedici vasitədir". Bunu SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.***

Baş reaktorun sözlərinə görə, bəzən insanlar yalan informasiyalara özlərini inandırırlar və özlərinə uydurma bir etnik-kimlik düzəldirlər: "Sonradan şovinizmə, xəyala, romantizmə söykənən bu kimliyi ermənilər kimi faşizm ideologiyasına da bəzəyirlər. Daha sonra bu tarixi informasiyanın yaratdığı kimliyin girovuna çevrilirlər. Nəticə etibarilə bunlar real həyata və real ictimai münasibətlərə, beynəlxalq münasibətlərə transfer olunanda isə bu cür faciələrə gətirib çıxarır. Düşünürəm ki, bu mənada Azərbaycan xalqı informasiya siyasətini düzgün təyin edən və xalq kimi öz davranışlarını düzgün müəyyənləşdirən nümunəvi xalqlardan biridir. Çünki nə bizə aiddirsə onu qəbul edirik amma nə bizə aid deyilsə ona əsla iddia etmirik. Eləcə də onu qəbul etməyi özümüzə şərəf bilmirik. Bu çox mühüm genetikxarakterli xalqın, millətin genetik xüsusiyyətidir. Bütün bunların hamısı uşağlıqdan bəri insanların qəbul etdiyi informasiya ilə bağlıdır. Ona görə də düşünürəm ki, hazırki mərhələdə informasiyanın insanlara çatdırılması və insanların informasiyanı əldə etməsi o qədər sürətlə baş verir və o qədər totaldır ki, bundan kənarda qalmaq mümkün deyil. Məhz ona görə də son illərdə informasiya təhlükəsizliyi daha aktualdır və bundan bəhs edilir. Biz Vətən müharibəsi dövründə də bir daha informasiya müharibəsindən yaxşı bir silah kimi istifadə etməyi bacardıq".

# PKK terrorçusu: "Biz Qarabağa qədər gedərək, ermənilərə kömək etmişik"

*Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad edərkən, erməni silahlı qüvvələrinin tərkibində döyüşən onlarla PKK terrorçularını məhv edib*



***Hələ sentyabr ayının 27-dən əvvəl Türkiyə və digər ölkə mətbuatları yazırdılar ki, PKK/YPG terror təşkilatının silahlıları müxtəlif vasitələrlə Ermənistana axın edir, bu vasitə ilə Qarabağda silahlı təxribatlar törətmək üçün istifadə olunurlar. Hətta məlum olmuşdu ki, Ermənistanda ayrılmış xüsusi adamlar İraqda, Suriyada və s. Yaxın Şərq ölkələrində mənzillənmiş kürd terror təşkilatının yerlərdə fəaliyyət göstərən rəhbərləri ilə görüşərək planlar və xəritələr üzərində iş aparıb, onların Qarabağa istiqamətlənməsi, silahlanması və s. ətrafında fikir mübadilələri aparıblar. Artıq bu barədə kifayət qədər faktlar, dəlillər mövcuddur.***

Lakin bu arada Türkiyənin "Sabah" qəzeti daha dolğun və inanılmış faktlara söykənərək, 44 günlük Qarabağ müharibəsində PKK/YPG terrorçularının işğalçı Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycan Ordusuna qarşı döyüşdüyünü əks etdirən yazı ilə çıxış edib. SİA xəbər verir ki, sözügedən faktı hətta kürd terrorçuları da etiraf edirlər.

**Layika Gültəkin: "İstənilən zaman erməni xalqı arzu edərsə, biz təbii ki, onların sıralarına qoşulacağıq"**

Beləliklə, terror təşkilatının rəhbər qadın strukturlarında yer alan Layika Gültəkin PKK/YPG-yə yaxınlığı ilə seçilən KİV-lərə bildirib ki, onlar hər zaman erməni xalqının çağırışlarına səs veriblər.

"Deyirlər ki, PKK-da kimsə qalmayıb, bizim sayımız azalıb. Amma bu, belə deyil. Biz Qarabağa qədər gedərək, ermənilərə kömək etmişik. İstənilən zaman erməni xalqı arzu edərsə, biz təbii ki, onların sıralarına qoşulacağıq", deyə terrorçu qadın bildirib. Bu arada o da məlum olub ki, Layika Gültəkinin adı Türkiyənin PKK terrorçularının adları qeyd olunmuş "qırmızı" axtarış siyahısında yer alıb və təhlükəlilərdən hesab olunur. Onun tapılaraq qanuna təslim edilməsinə görə 10 milyon Türkiyə lirəsi vəd edilib.

Xatırladaq ki, Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı azad edərkən, erməni silahlı qüvvələrinin tərkibində döyüşən onlarla PKK terrorçularını məhv edib. Eyni zamanda, işğalçılar tərəfində döyüşən digər bu və ya digər terror təşkilat üzvlərinin adları Azərbaycanın hüquq-mühafizə orqanlarına məlumdur. Onlara qarşı cinayət işləri açılıb.

# Azərbaycanda karantin rejimi niyə sərtləşdi?

***Məlum olduğu kimi, sentyabrın 27-də saat 06:00 radələrində quduzlaşmış Ermənistanın Azərbaycana qarşı təxribatı 44 gün sonra ölkəmizin Tarixi Qələbəsi ilə başa çatdı. Çünki Azərbaycan haqqın, ədalətin bərpası uğrunda vuruşurdu. Bu, "QƏLƏBƏ ZƏFƏRİ 44 gün davam edən və 30 illik həsrətə son" deyən - Ali Baş Komandandanımızın zəfər müjdəsidir! Belə bir məqamda dünyanı ağuşuna alan "COVID-19"-a qarşı mübarizədə də bu qələbəyə nail olacağımız gün də gələcək. Ancaq bu "gözəgörünməz müharibədə" göstərilən qanunlara əməl olunarsa. Bu mübarizədə vətəndaşların karantin qaydalarına əməl etmələri pandemiya ilə müharibəyə qalib gəlməyin əsas yoludur və bu şərtləri ilə yaşamağa məcburdur. Reallıq odur ki, ani bir diqqətsizlik insanların həyatını sual altında qoya bilər. Çünki gözəgörünməz bəla çox təhlükəli, aqressivdir və hansısa səhv ağır nəticələr verə bilər.***

Dövlət başçımız dünyanı ağuşuna alan koronavirus pandeminasının ilk günlərindən Prezident İlham Əliyevin uzaqgörənliyinin nəticəsi olaraq vaxtında qəbul edilən düşünülmüş düzgün qərarlar itkiləri minimuma endirməyə imkan yaradıb və məhz zamanında görülən tədbirlər nəticəsində Azərbaycanın adı nümunəvi ölkələr sırasında çəkilir. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bildirib ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçündür. Bir sözlə, dövlət başçısı koronavirusla mübarizə ilə bağlı atılan ardıcıl addımlarda əsas məqsədin Azərbaycan xalqının sağlamlığının qorunması olduğunu bildirib: "Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır. Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq".




## Hikmət Hacıyev: "Gündəlik yoluxma hallarının artması ciddi narahatlıq yaradır"

Nazirlər Kabineti yanında Operativ Qərargahın keçirdiyi brifinqdə bildirilib ki, hər bir kəs karantin rejiminin qaydalarına bir mənalı şəkildə əməl etməlidir. Brifinqdə Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva çıxış edib. "Son dövrlər brifinqlər Vətən müharibəsinə həsr olunurdu. Hər birimiz də Ali Baş Komandanın rəhbərliyi ilə görülən işlərdən sevinc hissi keçiririk".

Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın bu gün keçirilən brifinqində deyib. Onun sözlərinə görə, son dövrlər ərzində dünyada koronavirusa yoluxma halları artıb: "Hətta çox artım tendensiyası da müşahidə olunur. Bu, ölkəmizi də ciddi sürətdə narahat edir. Azərbaycanda gündəlik yoluxma hallarının artması ciddi narahatlıq yaradır". Hikmət Hacıyev bildirib ki, hazırda dünyada yeni növ koronavirus (COVID-19) infeksiyasına yüksək yoluxma dinamikası müşahidə olunmaqdadır. Bu səbəbdən virusun geniş yayılmasının qarşısının alınması üzrə müvafiq tədbirlər həyata keçirilir, bir çox ölkələr sərt karantin qaydaları tətbiq edir: "Son dövrlər dünya miqyasında koronavirusa yoluxma hallarında artım müşahidə olunur. Qonşu ölkələrdən Gürcüstan, İran İslam Respublikası, rkiyə və Rusiyada virusa yoluxma hallarında artım tendensiyası baş verir. Həmçinin ölkəmizdə də gündəlik 2000-dən yuxarı yoluxma halları özünü göstərir. Eyni zamanda ölüm hallarının da artması ciddi narahatlıq doğurur. Ölkəmizin Vətən müharibəsində olduğu, tibb sisteminin diqqətinin bu xüsusa yönəlməsi virusla mübarizədə daha diqqətli olmalı olduğumuzu bildirir. Xəstəxanalarda yer sayının azalması narahatedicidir. Bu səbəblə də 28 dekabr 2020-ci ilədək ölkə üzrə xüsusi karantin rejiminin müddətinin uzadılması ilə bağlı qərar qəbul edilib".

## Prezidentin köməkçisi: "Orduda kütləvi yoluxma halları yoxdur"

"Koronavirusun Azərbaycanın Silahlı Qüvvələrində yayılmasının qarşısı alınıb. Silahlı Qüvvələrimizin tərkibində yoluxma halları kütləvi şəkildə özünü biruzə verməyib". Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözlərinə görə, çağırışçılar da ordumuzun tərkibinə qoşulan zaman onlardan test götürülür: "Bizim yaralı əsgərlərimiz var. Onların da yoluxmaması bizim qarşımıza duran əsas vəzifədir. Biz Vətən müharibəsində qalib olduq, bunda da qalib olmalıyıq". Azərbaycanda xüsusi karantin rejiminin uzadıldığı 2020-ci il 28 dekabr tarixinədək fəaliyyətinə icazə verilən sahələr açıqlanıb. B barədə Nazirlər Kabinetinin qərarında bildirilir.

Qərara əsasən, fəaliyyətinə icazə verilən sahələr aşağıdakılardır:

1. hüquq mühafizə, məhkəmə orqanlarının, hərbi xidmət nəzərdə tutulmuş orqanların və vəkillərin fəaliyyəti;
2. fasiləsiz fəaliyyət göstərən digər dövlət orqanlarının (qurumlarının) fəaliyyəti;
3. səhiyyə və sosial xidmət müəssisələrinin fəaliyyəti, dezinfeksiya xidmətləri;
4. kommunal xidmətlər (su, elektrik enerjisi, qaz, istilik, rabitə və telekommunikasiya, məişət tullantıları), meliorasiya və su təsərrüfatı fəaliyyəti;
5. fasiləsiz fəaliyyət göstərən müəssisələrin, həmçinin qida məhsullarının istehsalı, tədarükü, təchizatı, saxlanması və topdan satışı müəssisələrinin fəaliyyəti;
6. apteklərin, ərzaq mağazalarının (bazarlar və yarmarkalar istisna olmaqla), yanacaqdoldurma məntəqələrinin fəaliyyəti;
7. kütləvi informasiya vasitələrinin fəaliyyəti;
8. mühafizə xidmətləri.

Bununla belə, son günlərdə "COVID-19" virusuna yüksək yoluxma dinamikası qeydə alındığından, aşağıdakı qadağaların tətbiq edilməsinə qərar verilib. Sərt karantin rejimi tətbiq edilən Şəki, Lənkəran şəhərləri, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarında bu tədbirlərin müddəti 2020-ci il 7 dekabr saat 06:00-dək uzadılır; Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılır;

2020-ci il 21 noyabr saat 00:00-dan 28 dekabr saat 06:00-dək bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyəti dayandırılır; 2020-ci il 21 noyabr saat 00:00-dan 28 dekabr saat 06:00-dək şənbə və bazar günləri həyati əhəmiyyət kəsb edən fəaliyyət növləri, o cümlədən aptek və ərzaq mağazaları istisna olmaqla digər bütün sahələr üzrə yerində xidmətlər dayandırılır; 2020-ci il 21 noyabr tarixindən etibarən xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur. Maskalardan istifadə qaydalarına nəzarət rejimi daha da sərtləşdirilir.

Xatırladaq ki, müvafiq yerlərdə tibbi maskadan istifadə olunmaması və ya tələb olunan normalara uyğun taxılmaması qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır.

Dünyadakı, o cümlədən Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq yüksək risk qrupuna daxil olan yaşı 65-dən yuxarı şəxslərin zərurət yaranmadan yaşayış yerlərini tərk etməmələri tövsiyə olunur.

Həmçinin özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara da işçilərin say həddinin 30 faizədək azaldılması və digər əməkdaşların məsafədən iş rejiminə keçirilməsi tövsiyə edilir.

Bir daha bütün şəxsləri "COVID-19" virusu ilə mübarizədə mövcud karantin tələblərinə ciddi riayət etməyə, zərurət olmadıqda kənar şəxslərlə təmaslardan yayınmağa, qapalı və açıq məkanlarda sosial məsafəyə əməl etməyə çağırırıq.




**R.HÜSEYNOVA**

# Bu gün Qarakənd faciəsindən 29 il ötür

*Ermənilərin öncədən planlaşdırdığı terror aktı*

***Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi. 1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbiləşdirilmiş dəstələri tərəfindən vurulan Azərbaycan hərbi helikopter hadisəsindən 29 il ötür.***

Qeyd edək ki, 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Dağlıq Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirsin, çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı.

Mənbələrdə göstərilir ki, rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam Hava Limanına verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır. Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Tofiq İsmayılov tərtib olunmuş siyahıya başçılıq etməli, Ağdamda Təhlükəsizlik Şurasının səyyar iclası keçirməliydi. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Siyahıdakıların bəzilərinə hazırlıq üçün telefon zəngləri olunur. Dağlıq Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam Hava Limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Dağlıq Qarabağ ərazisindəki fəaliyyətinə isə, üçlük nəzarət edir - Dağlıq Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş (M-16-26 və MS-22-22 nömrəli) və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqladı.




Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub. İlkin olaraq, Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-ü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edildi.

Qeyd edək ki, 2010-ci il noyabrın 20-də Qarakənd faciəsi ilə bağlı qaldırılmış cinayət işinin istintaqı dayandırılıb. Səbəb hadisənin baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması idi. Cinayəti törədən şəxsləri müəyyənləşdirmək mümkün olmayıb. Azərbaycanın dövlət və ictimai xadimlərinin bir vertolyata yığılaraq vurulması xüsusi hazırlanan planın tərkib hissəsi idi. Vertolyotun isə ermənilər tərəfindən vurulması isə dəqiqləşib. Həmin şəxslərin bir vertolyotda uçması ilə bağlı ermənilərə dəqiq məlumat verilib və hər şey öncədən planlaşdırılıb. Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi. Hadisədən 29 il keçməsinə baxmayaraq, indiyədək terror aktının üstü tam açılmayıb.

***Zümrüd BAYRAMOVA***

## Erməni həyasızlığı: **evsiz gəldi, evlə getdi**



Azərbaycan Ordusu tərəfindən azad olunmuş torpaqlarımızı tərk edən mənfur qonşularımız əllərinə keçən bütün əşyaları maşınlara yükləyib daşıyırlar. AZƏRTAC xəbər verir ki, Qarabağdan qaçan ermənilər evləri belə yerli-dibli çıxararaq yük maşınlarında Ermənistana aparırlar. Erməni vandalları təbii ki, bununla da öz xislətlərini nümayiş etdirirlər. "Associated Press"in fotomüxbirinin noyabrın 18-də çəkdiyi bu kadr ermənilərin həyasızlığının daha bir nümunəsidir.

Hələ bu harasıdır? Ötən günlərdə xarici saytlarda yayımlanan videokadrlarda abır-həyasını itirmiş hayların evdəki unitazları da ikiəlli yapışaraq daşıdıqlarının şahidi olduq. Heç şübhəsiz ki, unitazlar onlara getdikləri yerdə daha lazımlı olacaq. Dünyaya özlərini əzabkeş kimi qələmə verən ermənilər qaçhaqaçda qədim Azərbaycan torpaqlarının fauna və florasını məhv etməyi, meşələrimizi yandırmağı da unutmadılar. Bu azmış kimi, yaşadıqları ərazidə uzun illər istifadə etdikləri heyvanlara da qənim kəsildilər. Malqaranın bir qismini maşınlara yükləyən rəzil ermənilər yazıq eşşəklərə rəhm etməyərək qanlarına qəltan etdilər. Nədənsə maşında onlara yer tapmayaraq sözün əsl mənasında genosidə uğratdılar. Yəqin fikirləşiblər ki, Ermənistanda uzunqulaqlardan çoxdur. Bəzi siyasi analitiklərin fikrincə, bu hadisələr həm də onu göstərir ki, haylar bir daha qədim Azərbaycan torpaqlarına dönməyəcəklərindən əmindirlər.

## Ermənistan vətəndaş müharibəsinə doğru...

Müharibədə məğlubiyyət xəbərini eşidən, bunu təsdiqləyən sənədin imzalanmasını bilən erməni cəmiyyəti həmin andan etibarən Ermənistanın küçə və meydanlarında etiraz aksiyasına başlayıb. Etirazçıların tələbi ilk növbədə baş nazir Nikol Paşinyanın istefasıdır. Baxmayaraq ki, etirazlar səngimir və hər gün mitinqdə eyni istefa tələbi səsləndirilir, Nikol Paşinyan hələ də istefa verməyib və görünür vermək niyyətində deyil. Elə buna görə də etirazçılar, göründüyü kimi, təkcə azadlıq meydanını deyil, digər küçələri də mitinq üçün məkan seçirlər və bu dəfə təsir vasitəsi olaraq yolların bağlanılmasına əl atılıb.



Paşinyanın istefasını tələb edən etirazçılar İsakov prospektini bağlayıblar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, ABŞ-ın Ermənistandakı səfirliyinə bitişik ərazidəki İsakov prospektini Nikol Paşinyanın istefasını tələb edən etirazçılar bağlayıblar.

Məlumatda qeyd olunur ki, sürücülərin yolu açmaq və hərəkətə mane olmamaq tələbinə baxmayaraq, nümayişçilər hərəkətlərinə davam ediblər. Bu ərazidə aksiya "Rodina" partiyasının üzvü Babken Arutyunyan tərəfindən koordinasiya olunub.

O, bir az əvvəl bu sahədəki aksiyanın dayandırıldığını və İrəvanın digər küçələrində də davam edəcəyini söyləyib. Göründüyü kimi, etirazçılar hələ bundan sonra digər küçələrdə də mitinqi davam etdirmək niyyətindədirlər və bu da ondan xəbər verir ki, erməni cəmiyyəti öz tələbində, baş nazirin istefası tələbində israrlıdır. Bununla yanaşı Nikol Paşinyanın da öz postunu təhvil verməməkdə israrlı olduğu günü reallığıdır. Bütün bunlar isə onu göstərir ki, Ermənistanda bundan sonra daha böyük xaos gözlənilir və hətta vətəndaş müharibəsi belə proqnozlaşdırılır.

***İnam Hacıyev***

## Lavrov həmsədrlərlə Qarabağdakı vəziyyəti müzakirə edib



Lavrov Minsk Qrupunun həmsədrləri ilə Qarabağdakı vəziyyəti müzakirə edib. SİA xəbər verir ki, görüşdə İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa), Endryu Şofer, həmçinin ATƏT sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik iştirak ediblər. "Danışıqlar zamanı Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 9 noyabrdan atəşkəs və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanatından sonra Dağlıq Qarabağda və ətrafındakı vəziyyət müzakirə edilib", - deyə Rusiya XİN-dən bildirilib.

***Aysel Məmmədova***

## Daha bir erməni generalı gəbərdi



Birinci Qarabağ müharibəsində azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə seçilən, Serj Sarqsyanın lideri olduğu "Respublika" partiyasından olan sabiq deputat Manvel Qriqoryanın ölməsi xəbəri yayılıb. SİA xəbər verir ki, bu barədə partiyanın üzvü Karen Avaqyan sosial şəbəkədə yazıb. Bildirilir ki, Qriqoryan Qarabağda oktyabrın 7-dək olub. Lakin ayın 20-də vəziyyəti pisləşib və Ermənistana aparılıb.

Xatırladaq ki, general Manvel Qriqoryan erməni ordusunun işğal etdiyi Cəbrayıl və Fizuli rayonlarında yerləşmiş 5-ci briqadasına rəhbərlik edib. O cümlədən, bu erməni generalı Fizuli rayonunu təməlli olaraq talayıb, azərbaycanlı əsirlərə qarşı qəddarlığı ilə seçilib.

***Rövşən RƏSULOV***

# 22 noyabr ədliyyə işçilərinin peşə bayramıdır

## *Azərbaycan tarixinin ən şanlı qələbəsi*

***Ulu öndərimiz Heydər Əliyevin sərəncamı ilə təsis edilən peşə bayramı gününü 20 ildən sonra yüksək əhval-ruhiyyə ilə,qalib və mübariz xalqın nümayəndəsi kimi qarşılayırıq***

Müstəqil Azərbaycan dövlətinin banisi, ulu öndərimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı kimi təsis edilmişdir. Tarixi irsin qorunması və ədliyyə sahəsində çalışan əməkdaşlarda mənəvi stimul yaradılması baxımından bu sərəncam olduqca mühüm əhəmiyyətə malikdir. Bu bayramı ədliyyə işçiləri hər il böyük ruh yüksəkliyi ilə geniş qeyd edirlər. Ədliyyə orqanlarının keçdiyi şərəfli, eyni zamanda, çətin və fədakar yol çoxəsrlik tariximizin əlamətdar səhifələrini təşkil edir. Siyasi quruluşundan asılı olmayaraq bütün zamanlarda ədliyyə orqanlarının, xüsusən də məhkəmələrin qanunun aliliyinə və vəzifə səlahiyyətlərinin məsuliyyətli icrasına yönələn fəaliyyəti daim gərəkli olmuşdur. Müstəqil dövlətçiliyimizin qorunmasında və möhkəmləndirilməsində müstəsna rol oynamış Azərbaycan Ədliyyəsinin bayramı bu baxımdan yalnız ədliyyə işçiləri üçün deyil, hər bir vətəndaşımız üçün əlamətdardır. Belə ki, ədliyyə sistemi hər bir dövlətin, xüsusən də demokratik-hüquqi cəmiyyətin aparıcı qüvvəsidir. Bu gün biz fəxrlə deyə bilərik ki, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan dövləti möhkəm təməllər üzərində qurulmuş və müasir dünya tələbləri səviyyəsində fəaliyyət göstərən ədliyyə sisteminə malikdir.

Demokratik inkişaf yolunda möhtəşəm uğurlara nail olmuş Azərbaycanın təcrübəsi sübut edir ki, ictimai-siyasi həyatın bütün istiqamətləri üzrə hüquqi bazanın möhkəmləndirilməsi, ədalət prinsiplərinə ciddi şəkildə riayət olunması sabitliyin, vətəndaş həmrəyliyinin və dinamik iqtisadi inkişafın başlıca təminatlarından biridir. Ölkəmizdə siyasi və iqtisadi islahatların paralel aparılması, o cümlədən ədliyyə və məhkəmə-hüquq islahatlarının sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması sayəsində dünyanı belə heyran qoyan hərtərəfli, fenomenal sıçrayışa nail olunmuşdur. Bu əlamətdar gündə ənənəvi olaraq ədliyyə orqanlarının tarixinə, görülmüş işlərə, qarşıda duran mühüm vəzifələrə bir daha nəzər salınır.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə respublikamıza rəhbərliyə gəlişindən sonra ədliyyə sisteminə zəruri diqqət göstərilmiş, Ədliyyə Nazirliyi yenidən bərpa edilmiş, onun vahid strukturu formalaşdırılmışdır.Ulu öndərimiz ədliyyənin inkişafı və mühüm dövlət orqanı kimi formalaşması üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə başlanan ədliyyənin inkişafının əsaslı dönüş mərhələsi də ulu öndərin adı ilə bağlı olmuş, Ədliyyə Nazirliyinin funksiya və səlahiyyətləri genişləndirilmiş, nazirlik milli dövlətçiliyimizin əsas sütunlarından birinə çevrilmişdir.




27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyinin yenidən yaradılması Azərbaycan ədliyyəsinin tarixində mühüm rol oynamış və bu sahədə formalaşan təcrübə bugünkü ədliyyə sisteminin qurulmasına öz töhfəsini vermişdir. O dövrdən başlayaraq ədliyyə sistemi dövlət mexanizminin mühüm elementi kimi öz rolunu artırmış, hüquq-mühafizə fəaliyyəti, struktur formalaşması, digər orqanlarla qarşılıqlı əlaqənin səmərəli və operativ təmin edilməsi istiqamətində işlərin normativ və praktiki təşkili üzrə mühüm təcrübə formalaşmışdır. Həmin bu təcrübə Azərbaycanda müstəqilliyin ilk illərində ədliyyə sisteminin gələcək inkişafını qura bilmək üçün mühüm baza rolunu oynamışdır.

Müstəqillik illərində həyata keçirilən islahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsinə yüksəldilməsi üçün əsaslı tədbirlər görüldü, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyuldu. Bu köklü islahatlar sayəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi məqsədilə onlarca normativ sənədlər qəbul edildi. Ulu öndərimiz Heydər Əliyev müdrikcəsinə demişdi ki, yeni siyasi şəraitdə hüquqi və demokratik dövlətin qurulması güclü ədliyyə sisteminin formalaşdırılması ilə sıx şəkildə bağlıdır. Çünki yalnız möhkəm və güclü ədliyyə sistemi olan dövlətlərdə vətəndaşların hüquq və azadlıqları, qanun qarşısında bərabərliyi, ən əsası isə Qanunun aliliyi yüksək səviyyədə təmin olunur.

Həyata keçirilən məhkəmə-hüquq islahatlarının başlıca məqsədi Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər məsələlərin konseptual həlli olmuşdur. Ümummilli liderin 1998-ci il dekabrın 1-də imzaladığı fərmanla qüvvəyə minmiş ? Məhkəmələr və hakimlər haqqında qanunlar bu sahədə qanunvericiliyin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından mühüm addım olmuşdur. Məhkəmə fəaliyyətinin hüquqi əsaslarını və ədalət mühakiməsinin daha səmərəli təşkili qaydalarını özündə əks etdirən qanunda hakim vəzifəsinə seçkilərlə bağlı bir sıra zəruri tələblər də əksini tapmışdır. Hakim vəzifəsinə seçkilərin test üsulu ilə, tamamilə açıq, şəffaf, obyektiv və ədalətli prosedur əsasında keçirilməsi prinsiplərini müəyyənləşdirən qanunda məhkəmə hakimiyyətinin dövlət idarəçilik sistemində nüfuzlu, mötəbər və müstəqil orqan kimi formalaşması məsələsinə də xüsusi diqqət ayrılmışdır.

Ümummilli lider Heydər Əliyevin yaratdığı siyasi xətti uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı yolunda yeni nailiyyətlər əldə edilmiş, həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətin idarə olunmasında yeri və rolu daha da artmış, nüfuzu və mövqeyi möhkəmlənmişdir. 2006-cı ildə Prezident İlham Əliyev tərəfindən Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilməklə Ədliyyə Nazirliyinə hüquq-mühafizə orqanı statusunun verilməsi bu gün böyük səlahiyyətlərə malik olan Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinin, onun qarşısında duran mühüm vəzifələrin miqyasının ciddi şəkildə genişlənməsinin hüquqi göstəricisidir.

26 may və 17 avqust 2006-cı il tarixlərində dövlət başçısı tərəfindən müvafiq Fərmanlar imzalanmaqla "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" və "Ədliyyə orqanlarının inkişafı haqqında" Qanunlar qəbul olunmuşdur. Həyata keçirilmiş islahatlar nəticəsində Ədliyyə orqanlarına qəbul prosesi durmadan inkişaf etdirilmiş və 2006-cı ildən sonra isə ədliyyə orqanlarında xidmətə qəbul prosesi müsabiqə yolu ilə aparılmağa başlanmışdır. Sənədlərin qəbul edilməsi prosesinin optimallaşdırılması və imtahan prosesinin internet üzərindən canlı yayımlanması ədliyyə orqanlarında qulluğa qəbulun təkmilləşdirilməsinin təzahürüdür.

Dövlət başçısı cənab İlham Əliyev tərəfindən ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə mühüm qərarlar qəbul olunmuş, ədliyyə fəaliyyətinin mükəmməl normativ-hüquqi bazası yaradılmış, ədliyyə işi beynəlxalq norma və prinsiplərə uyğunlaşdırılmış, onun üzərinə yeni mühüm vəzifələr qoyulmuş, gələcək inkişafına dair əhatəli proqramlar qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"ı çərçivəsində təşkil edilən həmin tədbirlər cəmiyyətimizin gənc təbəqələri arasında Konstitusiya haqqında biliklərin inkişaf etdirilməsinə yönəlmişdir.

Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını həyata keçirən Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində məhkəmə sistemində infrastrukturun müasirləşdirilməsi və inkişafı sayəsində aparılan islahatlar, hakimlərin sosial müdafiəsinin gücləndirilməsi habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələlər həmişə diqqət mərkəzində olmuş və uğurla həyata keçirilmişdir.

Hazırda ölkəmizdə yaradılmış müasir məhkəmə sistemi vətəndaşlar üçün məhkəməyə çatımlılığı təmin edir, bölgələrdə apellyasiya və ağır cinayət,inzibati və kommersiya məhkəmələri müvəffəqiyyətlə fəaliyyət göstərir. Hakim korpusu dünya standartlarına cavab verən şəffaf metodlar əsasında formalaşdırılmış, məhkəmələrin normal fəaliyyəti üçün maddi-texniki baza yaradılmışdır.

Bu sahədə qazanılmış uğurları məhz ulu öndərin məhkəmə hüquq sistemində islahatlara verdiyi önəmlə, dahi rəhbərin siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirilməsi ilə bağlıdır.

Bu günlər biz ədliyyə işçiləri üçün ikiqat bayramdır.Böyük Vətən Müharibəsinin qalib kimi, həm də peşə bayramımızı qeyd edirik. 10 noyabr tariximizə Qələbə Günü kimi daxil oldu. Bizə qürür və fəxarət yaşadan bir qələbə! Böyük sevinc hissi ilə qeyd edərdim ki, ,ulu öndərimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramını 20 ildən sonra biz ədliyə işçiləri yüksək əhval-ruhiyyə ilə,qalib və mübariz xalqın nümayəndəsi kimi qarşılayırıq.Bu hissləri,bu sevinci bizə yaşadan,nəsib edən Prezident,Ali Baş Komandan cənab İlham Əliyevə sonsuz minnətdarıq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı. Ali Baş Komandan başda olmaqla qəhrəman ordumuz Ermənistanı sülhə məcbur etdi. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də Qələbənin qazanılmasını şərtləndirdi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladığı birgə bəyanat Azərbaycanın döyüş meydanında qazandığı parlaq qələbənin siyasi-diplomatik müstəviyə daşıdı.Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti,

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşmüşlər.Görüşdə cənab İlham Əliyev demişdir:"Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik.Döyüşlər şiddətli xarakter almışdı, düşmən müqavimət göstərirdi. Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb. Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və siz - bu döyüşlərdə fəal iştirak edən insanlar yaxşı bilirsiniz ki, 30 il ərzində hansı istehkamlar qurmuşdular. O istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi. Bir də ki, o bölgənin coğrafiyası özlüyündə bir istehkamdır. Şuşa alınmaz qala sayılan bir şəhərdir. Pənahəli xan o şəhəri elə salmışdır ki, Şuşa sakinlərini düşməndən maksimum dərəcədə mühafizə edə bilsin. Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir".

*Ardı Səh. 11*

# 22 noyabr ədliyyə işçilərinin peşə bayramıdır

*Azərbaycan tarixinin ən şanlı qələbəsi*

**Əvvəli Səh. 10**

Azərbaycan Ordusu və xalqımız düşmən üzərində həlledici qələbə qazandı.Otuz il ərzində torpaqlarımızı işğal altında saxlayan Ermənistan nəhayət ki, ölkəmiz qarşısında diz çökdü. Dövlətimizin qətiyyəti, xalqımızın iradəsi, ordumuzun gücü, birliyimiz və həmrəyliyimiz sayəsində əldə olunan bu tarixi qələbə Azərbaycanın qüdrətini bütün dünyaya sübut etdi. Dünya ölkələri bu gün Azərbaycan xalqının həm mədəniyyətini, həm intellektual səviyyəsini, həm döyüş bacarığını, həm onun diplomatik gücünü gördü və biz həqiqəti dünyaya çatdırmağa nail olduq. Azərbaycan Böyük qələbənin ilk addım səslərini noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Buna Ali Baş Komandan, məğlubedilməz Sərkərdə İlham Əliyev nail oldu.

Döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Bütün bunlar barədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətində də geniş bəhs edilib. Dövlətimizin başçısı Ermənistanın məğlubiyyətinin etiraf etdiyi günün ölkəmiz üçün tarixi bir gün olduğunu, bununla da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulduğunu vurğulayıb: "Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar".

Azərbaycan Prezidenti daha sonra xalqımızı sözügedən bəyanatın mətni ilə tanış edərək, sənəddə bu il noyabrın 10-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılmasının elan olunduğunu, Azərbaycan və Ermənistan respublikalarının hazırda tutduqları mövqelərdə qalacaqlarının vurğulandığını bildirib.

Xatırladaq ki, haqqında bəhs olunan birgə bəyanatda Ermənistan öz üzərinə dekabrın 1-nə kimi Azərbaycanın işğal altında olan Kəlbəcər, Ağdam, və Laçın rayonlarından qoşunlarını çıxaracağı öhdəliyini götürdü. Beləliklə, baza prinsiplərinin hər iki mərhələsi yerinə yetirilir. Bu isə haqqın qələbəsi, ədalətin təntənəsidir.

Yeri gəlmişkən, bu proses çərçivəsində önəmli məqamlardan biri də Naxçıvanın blokadadan çıxarılması ilə bağlıdır. Belə ki, Rusiya tərəfi Ermənistan ərazisindən Naxçıvana dəhlizin açılmasını öz üzərinə götürür.Bütün bunlar, əlbəttə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun yüksək peşəkarlıqla, əzmlə, qətiyyətlə apardığı müharibənin- işğaldan azadetmə əməliyyatının məntiqi nəticəsidir.

Xüsusilə qeyd edilməlidir ki,qələbəmizin qazanılmasında qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin çox böyük əhəmiyyəti oldu. Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə həmişə bir-birinin yanında olublar.Bu fakt bir daha Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının əyani göstəricisidir. Türkiyədən bizə dəstək və həmrəylik nümayişi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir".

Xalqımız tarixində olmadığı dərəcədə yüksək birlik, həmrəylik nümayiş etdirdi, daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşdi. Ay yarım davam edən bu savaş xalq-iqtidar birliyindən güc alan Azərbaycanın qüdrətinin, milli birliyinin sarsılmazlığının göstəricisi oldu. Eyni zamanda Azərbaycan xalqının qazandığı zəfərin möhtəşəmliyi ölkə başçısı İlham Əliyevin mümkünsüzü mümkünə çevirmək qüdrətindən bəhrələndi. Böyük qələbə son əsrlərin ən böyük torpaq qazancı, münaqişənin birdəfəlik bitməsi, Qarabağla yanaşı, Naxçıvanın Vətənimizin Qərb torpaqlarına qovuşması, dünya Azərbaycanlılarının bir yumruq kimi birləşməsi ilə tarixə yazıldı. 28 il yarım işğal altında qalan Şuşanın işğaldan azad olunması, ulu öndər Heydər Əliyevin "Azərbaycan üzükdür, Şuşa onun qaşı" sözləri yenidən öz dəyərinə qovuşdu. Qətiyyətli Azərbaycan Ordusunun gücü, qüdrəti ilə bu qədim şəhər öz sahiblərinə qaytarıldı. Dövlət başçımızın qeyd etdiyi kimi, Şuşada yenə də azan səsi eşidiləcəkdir. Sənətkarlar beşiyi olan bu qədim şəhərdə artıq Azərbaycan bayrağı dalğalanır.

"Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsini qələbəmizin rəmzinə çevirən Prezident, Ali Baş Komandan İlham Əliyevin fəxrlə söylədiyi söz həyatda həllini tapdı. Prezident İlham Əliyevin noyabrın 10-da xalqa verdiyi Ermənistan üzərində tam və qəti qələbə xəbəri illərdən bəri aparılan məqsədyönlü siyasətin, xalq-iqtidar birliyinin nəticəsi olaraq bütün Azərbaycan xalqını qürurlandırdı. "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi" söyləyən dövlət başçımız İlham Əliyev diplomatik uğurları ilə sübut etdi ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır.

Bir məsələni də böyük fəxarətlə qeyd etmək istərdim ki,haqq uğrunda mübarizə apardığımız Böyük Vətən Müharibəsində ədliyyə və məhkəmə işçilərindən və onların ailə üzvlərindən də öz doğma torpaqlarını fədakarlıqla qoruyarkən şəhidlik zirvəsinə yüksələn və yaralanan vardır.Şəhid ailələrinin hamısına dərin hüznlə başsağlığı verir,yaralılarımıza tezliklə sağalmalarını arzulayırıq.Vətən sağ olsun deyirəm!

Bu gün ölkəmizdə ədliyyə və məhkəmə sisteminin təkmilləşməsi və müasirləşməsi üzrə atılan məqsədyönlü addımlar möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən mütərəqqi islahatların, nəhəng quruculuq işlərinin, sürətli sosial-iqtisadi inkişafın real təzahürüdür. Fürsətdən istifadə edərək bütün ədliyyə işçilərinin xalqımızın Ümummilli lideri, dahi öndər Heydər Əliyevin bizə bəxş etdiyi peşə bayramımız münasibəti ilə təbrik edir, onlara mühüm və şərəfli işlərində yeni-yeni uğurlar arzulayıram!

***Əläddin Cəfərov,***
***Bakı şəhəri Nizami Rayon Məhkəməsinin;***
***Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri***

# Yeni günün mübarək, azad AĞDAM!

*27 ildən sonra Ağdam Azərbaycana qayıdır*

Bu gün 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır. Bu Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapıb. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub: "Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır".




## AZƏRBAYCAN VƏTƏN MÜHARİBƏSİNDƏ DÖYÜŞ MEYDANINDA ÖZ SÖZÜNÜ DEDİ

27 ildən sonra günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev Ağdam öz sakinlərinə qovuşacaq. 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu status götürüldü. Ağdam sakinləri yurd-yuvasına dönür. Bundan qürurlu nə ola bilər. Qalib dövlətin qalib sakini kimi. Tarixdə çox az xalqlara nəsib olan bir məqamdır. Bu qüruru xalqımıza yaşadan Ali Baş Komandanımızdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi nəticəsində bu gün Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü demiş oldu. Bəli, bu gün Ağdam öz sakinlərinə qaytarılır. 27 il Ağdam şəhəri də daxil olmaqla ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan bir rayon. İşğala görə Ağdamın yalnız 10 kəndi Azərbaycanın nəzarəti altında idi.

## AĞDAMDA YENİ HƏYAT BAŞLAYIR

Bu gündən Ağdam Azərbaycan Respublikasına təhvil verilir. Erməni işğalından əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. VI-IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Dağlıq Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur.

Mövcud dövlətini qədim Azərbaycan torpaqları üzərində qurmuş Ermənistan Azərbaycanın yeni bir ərazisini - Dağlıq Qarabağı işğal etmək məqsədi ilə 1988-ci ilin fevralından başladığı müharibəyə ilk olaraq məhz Ağdam rayonu cəlb olunmuş, hadisələrin ilk günlərindən ən böyük ağırlıqlar Ağdam rayonunun, onun əhalisinin üzərinə düşmüşdür. Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Dağlıq Qarabağdan doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirib. Dağlıq Qarabağı bütünlüklə işğal edən Ermənistan, bununla kifayətlənməyərək Dağlıq Qarabağın ətraf rayonlarına da hücum edir. Xüsusən Ağdama edilən hücumlar ardı-arası kəsilmirdi. 1993-cü ildə Ağdamın müdafiəsi Surət Hüseynovun Gəncədə qaldırdığı qiyam nəticəsində xeyli zəiflədi. Ona tabe olan qüvvələr cəbhədəki mövqeləri qoyaraq, Bakıya doğru hücuma keçmişdilər. Ermənilər bu fürsətdən çox bacarıqla istifadə etdilər. 1993-cü ilin iyul ayının 23-də Ağdamın süqutu ilə başa çatdı. Ağdama edilən son hücumda 6.000 nəfər erməni əsgəri iştirak edirdi. Onların arasında çoxlu sayda xaricdən gəlmiş ermənilər və muzdlu əsgərlər də var idi. Ağdam uğrunda gedən döyüşlərin birində bədnam erməni terrorçusu Monte Melkonyan gənc azərbaycanlı kəşfiyyatçı İbad Hüseynov tərəfindən öldürülüb. Qarabağ uğrunda gedən döyüşlərdə 6.000-dən çox ağdamlı şəhid olub.

Artıq biz Ağdamın işğal tarixindən deyil, onun qələbəsindən, azad olmasından yazacağıq. Ağdamda həyata keçirilən abadlıq-quruculuq işlərindən yazacağıq. Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımıza məxsus din-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çalır. Azərbaycan öz haqqına qovuşur. Ağdamda yeni həyat başlayır. Yeni günün mübarək, azad AĞDAM!!!

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Bu möhtəşəm qələbənin əldə olunmasında ən böyük amil......”

## Milli Məclisin deputatı Rauf Əliyevin yap.org.az-a müsahibəsi:



-

***Rauf müəllim, bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılmış qələbəni böyük coşğu ilə qeyd edir. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu ərazi bütövlüyümüzün bərpa edilməsi uğrunda 44 gün ərzində apardığı Vətən müharibəsini parlaq qələbə ilə yekunlaşdırdı. Vətən müharibəsi dövründə xalqımızı daim öz müjdələri ilə sevindirən cənab Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımıza ən böyük müjdəni verdi. Müharibə başa çatdı, Ermənistan döyüş meydanındakı məğlubiyyətini siyasi cəhətdən də etiraf etdi, təslim oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin imzaladıqları birgə Bəyanat Ermənistanın təslim olmasını təsdiq edən sənəddir. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Bəyanatın imzalanmasının səbəblərindən biri Şuşanın, daha sonra Dövlət Bayraq Günü 72 yaşayış məntəqəsinin, ümumilikdə 300-dən çox yaşayış məntəqəsinin düşmən işğalından azad edilməsidir. Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın və Kəlbəcər rayonlarını siyasi yolla qaytarsın.

Son illərdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən kompleks sosial-iqtisadi islahatlar, xalq-iqtidar birliyi, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu quruculuğu sahəsində həyata keçirilən mühüm tədbirlər təbii ki, bu qələbəmizi şərtləndirdi. İqtisadi gücümüz qələbəni əldə etmək potensialımızı təmin etdi. Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. İqtisadi müstəqilliyimiz və gücümüz ordumuzu gücləndirmək üçün imkan yaradıb. Ordu üçün lazım olan bütün hərbi texnikanı, silahları alırıq. Azərbaycanda müdafiə sənayesi yaradıldı. Ordumuzun tələbatı böyük dərəcədə daxili istehsal hesabına təmin edilir. Azərbaycan illərlə, demək olar, bütün beynəlxalq platformalarda ərazi bütövlüyümüzü dəstəkləyən sənədlər qəbuluna nail olmaqla münaqişənin həllinə hüquqi zəmin yaratdı.

Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməyimiz əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici qüvvələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Bu birlik gələcək də qraşımızda duran bütün vəzifələri yerinə yetirmək üçün imkan yaradacaq. Dövlətin gücü Azərbaycan xalqının dəstəyindədir.

***-Sülhməramlıların bölgədə yerləşdirilməsi ilə bağlı cəmiyyətimizdə müxtəlif fikirlər səslənir. Bu barədə nə deyə bilərsiniz?***

-İmzalanmış bəyanatın 3-cü bəndində Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika , 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingentinin yerləşdirilməsi nəzərdə tutulub. Rusiya sülhməramlılarının bu nizamlama prosesinə cəlb edilməsini bəzi insanlar bir qədər ehtiyatla və narahatlıqla qarşılayırlar. Ola bilər ki, bu narahatlıq hissləri vaxtı ilə sovet-rus hərbi birləşməsinin Dağlıq Qarabağın işğalında ermənilərə köməklik göstərmələri ilə əlaqədardır. Ancaq bilmək lazımdır ki, indi reallıq tamamilə başqadır. Nə Azərbaycan 30 il bundan qabaqkı Azərbaycandır, nə də Rusiya. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi və həyata keçirilən hərtərəfli düşünülmüş, balanslaşdırılmış siyasət nəticəsində Azərbaycanla bizə qonşu olan Rusiya Federasiyası arasında münasibətlər strateji əməkdaşlıq səviyyəsinə çatıb. Ona görə də, Rusiya sülhməramlılarının bu nizamlama prosesində iştirakı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə imkan yaradacaqdır.

Eyni zamanda nəzərə almaq lazımdır ki, bu bəyanatın 5-ci bəndinə əsasən münaqişə tərəflərinin razılaşmaya əməl edilməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması nəzərdə tutulur ki, bu mərkəzin işində Rusiya ilə birlikdə Türkiyə Respublikasının nümayəndələri iştirak edəcək. Bu da sülhməramlı missiyanın beynəlxalq normalara uyğun, obyektiv bir şəkildə aparılacağına əlavə zəmanət verir.

***-Ümumiyyətlə, imzalanmış bəyanat hansı üstünlüklərə malikdir?***

- Bəyanatda məqamlar bizim maraqlarımıza uyğundur. Azərbaycan bu il sentyabrın 27-də başlamış İkinci Qarabağ müharibəsini müvəffəqiyyətlə başa vurdu, Vətən müharibəsi bizim Böyük Zəfərimizlə başa çatdı. Azərbaycan son iki yüz illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Azərbaycana maksimum sərf edən sənəddir. Çünki bəyanat uzun illər davam edən işğala son qoyur.

Vacib məqamlardan biri də odur ki, bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Dağlıq Qarabağa heç bir status, muxtariyyat, hətta mədəni muxtariyyat belə verilmir. Bəyanatla Ermənistan öz üzərinə Kəlbəcər, Laçın və Ağdam bölgələrindəki işğalçı hərbi birləşmələrin dağlıq və keçilməsi çətin olan ərazilərdən çıxarılması üçün kapitulyasiya öhdəlikləri götürür.

Mühüm məqamlardan biri də budur ki, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Beləliklə, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Bununla da, Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda türk dünyasının yerüstü tranzit-rabitə əlaqəsi bərpa olunur.

Əldə olunan razılaşma sənədi ümumilikdə Azərbaycan dövlətinin və xalqının mənafeyinə tam uyğundur. Bu razılaşma Azərbaycanın tam və birmənalı qələbəsidir. İşğalçı düşmənin silahlı birləşmələri işğal altında qalan ərazilərimizi bu sənəddə konkret müddətlərdə tərk edəcək və həmin ərazilər Azərbaycanın nəzarətinə keçəcək. Bəyanatın bütün bəndləri Azərbaycanın milli maraqlarına tam uyğundur. İşğal olunmuş bütün ərazilər Azərbaycanın nəzarətinə keçir və bu ərazilərdə ancaq Azərbaycan qanunları işləyəcək.

Əldə olunan bu qələbə Azərbaycan xalqına, xalq isə bu qələbəyə layiqdir. Azərbaycan dövlətçiliyi böyük bir imtahandan şərəflə çıxdı. Bu möhtəşəm qələbənin əldə olunmasında ən böyük amil Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin polad kimi möhkəm siyasi iradəsidir. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi, siyasi və diplomatik sahədə qələbələrimizin simvoluna çevrildi.

# “Past” qəzeti: Qarabağda Paşinyana və hökumətə qarşı nifrət var



Ermənistan tərəfinin təxribatlarına cavab olaraq Azərbaycan tərəfinin uğurlu antiterror əməliyyatlarına başlaması, torpaqların bir-birinin ardınca işğaldan azad edilməsi, geri qaytarılması erməni cəmiyyətində narazılıqlara səbəb olub. Xüsusilə, Dağlıq Qarabağda məskunlaşan erməni əsilli əhalinin də hiddəti özünü büruzə verir və gərginliyi də göz önündədir.

Dağlıq Qarabağda Ermənistanın mövcud hökumətinə və xüsusilə, Nikol Paşinyana qarşı son dərəcə mənfi münasibət, nifrət müşahidə edilir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlan məlumata istinadən xəbər verir ki, bu barədə “Past” qəzeti yazır.

Qəzet yazır ki, 10 noyabr gecə saatlarında bir neçə məmur, “Mənim Adımım” blokunun nümayəndələri, millət vəkilləri, nazirlər Xankəndinə ziyarət ediblər və baş verə biləcək onlar üçün arzuolunmaz hadisələrin yerindəcə qarşısını almağa çalışıblar. Onlar Xankəndinin meydanına toplaşdıqları zaman, məmurları tanıyan yerli sakinlərin şiddətli reaksiyası ilə qarşılaşmalı olublar.

“O zaman qondarma rejim rəhbərliyinin nümayəndələri baş verməsi gözlənilən gərginliyin qarşısını almaq üçün, sadəcə rəsmi şəxsləri meydandan uzaqlaşdırıblar. Həmin andan etibarən Dağlıq Qarabağ sakinləri mövcud hökumətə və xüsusilə, Nikol Paşinyana qarşı son dərəcə mənfi mövqedədirlər”, deyə qəzet yazır.

Bəlli olur ki, nəinki Ermənistanda yaşayan, hətta Dağlıq Qarabağda məskunlaşan ermənilər də Paşinyana və Ermənistan hökumətinə qarşı nifrət bəsləyir. Hazırda itkilərlə, məhrumiyyətlərlə və ehtiyaclarla dolu çətinliklərlə qarşılaşan ermənilərin bu baxımdan Ermənistanın mövcud hakimiyyətinə, xüsusilə baş nazir Paşinyana olan mənfi münasibəti anlaşılandır.

# Movses Akobyan: “Döyüş meydanından verilən bütün məlumatlar yalan idi”



Ermənistan cəmiyyətində bir çaşqınlıq olduğu çoxdandır ki, duyulmaqdadır. Sanki, ermənilər müharibənin məğlubiyyətini şok olaraq qarşılayırlar. Həm də elə bil ki, gözlənilməz xəbər kimi bununla barışa bilmirlər. Çünki, 27 sentyabr tarixindən müharibə başladığı zamandan bütün Ermənistan ictimaiyyətinə yalan olaraq müharibədə qələbə xəbərləri çatdırılıb və indi bu xəbərlərin ardınca rüsvayçı məğlubiyyət bu ictimaiyyətə şok yaşadıb.

“Silahlı Qüvvələrdə bir məlumat mərkəzi var və həmin mərkəzin vəzifələrindən biri düşməni azdırmaq, yəni yalan məlumat yaymaqdır. Bununla yanaşı yalanın reallığın 30% -dən çoxunu aşmaması kriteriyası var ki, bizim yalanımız 100% -i də aşırdı”. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistan Müdafiə Nazirliyinin Hərbi Nəzarət Xidmətinin keçmiş rəisi Movses Akobyan bu gün, 19 noyabr tarixində “Hayeli” klubunda keçirdiyi mətbuat konfransında deyib.

“Müharibənin 44 günü ərzində yalan ölkəmizə fayda gətirmədi, əksinə onu məhv etdi və ölkəmizi daha dərin bir böhrana saldı. 100% yalan hər kəsə zərərlidir. Biz 100% yalan danışdıq, məhz bu səbəbdən də müharibənin niyə dayandırıldığı, yalançı qalibiyyət xəbərlərinin ardınca, müharibənin dayandırılması, təslim olmaq barədə danışıqlarla əlaqədar bəzilərinin sualları ortaya çıxdı”, deyə Movses Akobyan bildirib. Görünür, Paşinyan hakimiyyəti qəbul olunan 30% yalan əvəzinə 100% yalan danışmaqla nəinki müharibəni, ümumiyyətlə bütövlükdə erməni cəmiyyətinin etibarını da itirib və uduzub.

# Yeni qayda sahibkarlara nə verəcək?

“Nazirlər Kabinetinin 448 № li Qərarı ilə “Malların ixrac qeydi ilə satışı Qaydası” təsdiq edilib. Bu qayda ölkə ərazisində istehsal olunmuş və ixrac üçün nəzərdə tutulan məhsulların istehsalçısı ilə qeyri-neft məhsullarının ixracatı sahəsində təcrübəsi olan peşəkar ixracatçılar arasında əməkdaşlığın şərtlərini müəyyən edir və işgüzar münasibətlərini tənzimləyir”.



XəzərXəbər İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir ki, bunu qurumun şöbə rəisi Elnur Yusifov bildirib.

Onun sözlətrinə görə, “Malların ixrac qeydi ilə satışı Qaydası”nda ixrac qeydi ilə satış həyata keçirən şəxsə (istehsalçıya) və ixrac qeydi ilə alınan malların ixracını həyata keçirən şəxsə (ixracatçıya) dair tələblər, malların ixrac qeydi ilə satışına aid edilməyən şəxslər və əməliyyatlara nəzarət, ixrac qeydi ilə malların ixracının həyata keçirilməsi prosesinə nəzarət tədbirləri öz əksini tapır. “Bu imkandan yararlanmaq üçün istehsalçı və ixrac qeydi ilə alınan malların ixracını həyata keçirən şəxs (ixracatçı) “Qayda”da onlar üçün müəyyən edilmiş tələblərə cavab verməlidirlər. “Qayda”nın 3-cü hissəsində müəyyən edilmiş şəxslər və əməliyyatlar istisna olmaqla, “Qayda” ölkə ərazisində qeyri-neft məhsulları istehsal edən bütün istehsalçılara və ixracatçılara şamil olunur. İstehsalçı ixrac üçün nəzərdə tutulan məhsulu ixracatçıya təqdim edərkən Vergi Məcəllesinin 165.1.9-cu maddəsinə müvafiq olaraq ƏDV-yə (0) dərəcə ilə cəlb olunur.

Bu mexanizm ixracatçının ixrac edəcəyi malların alışına görə ödəməli olduğu ƏDV-nin məbləği qədər dövriyyə vəsaitinə qənaət etməsinə şərait yaradır və inzibatçılıq yükünü azaldır, “- deyə o qeyd edib.

# Paşinyanın "ümidləri" və hakimiyyət ehtirası

***Müharibə Ermənistanın biabırçı, rüsvayçı məğlubiyyəti ilə başa çatdı və erməni cəmiyyəti öz təhlükəsizliyi üçün risklərin daha dərindən təhlil edilməsinə ehtiyac duyur. Görəsən, bu erməni cəmiyyəti keçmişdən hansı dərslər götürüb və Ermənistan üçün bundan sonra hansı yol qalır? Bunlar, xüsusən bu gün bütün erməni cəmiyyətinin mənəvi və psixoloji vəziyyətinin çətin olduğu şəraitdə cavablandırılması lazım olan ən vacib suallardır.***





Bu gün Ermənistanda məsuliyyət məsələsi gündəmdədir. Hər bir halda, bu işğalçı ölkə hakimiyyəti uğursuzluqlara görə cavabdehdir. Elə kütlənin də tələbi bu mənadadır. Ermənistan ictimaiyyəti müharibə məğlubiyyəti fonunda, alçaldıcı şəraitdə məğlubiyyətini isbatlayan sənədi Nikol Paşinyanın imzalanmasına görə ondan əl çəkmir və hesabat tələb edir. Doğrudur, erməni baş nazir öz "ənənəsinə", öz "dəst-xəttinə" müvafiq şəkildə yenə də manipulyasiyalar etməyə çalışır və güman edir ki, buna nail ola bilir, amma yanılır. Çünki, etirazçılar mitinqlərə toplaşmaqdan əl çəkən kimi görünmür. Əksinə, günü-gündən tələblər kəskinləşir və işğalçı ölkədə indi xaos hökm sürür.

Paşinyan baş verənlərin əsas günahkarı olduğunu etiraf etsə də, hansısa bir şəkildə məsuliyyətdən yayınmağa çalışır. Çünki bu vəziyyətdə məsuliyyəti üzərinə götürmək, ilk növbədə onun istefası, müvəqqəti hökumətin qurulması və erkən parlament seçkilərinin keçirilməsini vəd edir. Hadisələrin gedişi isə təsdiq edir ki, Nikol Paşinyan istefa vermək niyyətində deyil. Yeri gəlmişkən, prezident Armen Sarkisyan da tam açıq-aydın şəkildə olanlarda Nikol Paşinyanı günahlandırdı və məsuliyyət məsələsini də onun çiyinlərinə buraxdı. Ancaq ictimai və siyasi qüvvələrin böyük əksəriyyəti Nikol Paşinyanın dərhal istefasını tələb edərkən, erməni baş nazir bütün bunlardan sonra da ölkəni yenidənqurma mərhələsinə gətirə bildiklərinə cəmiyyəti inandırmağa çalışır.

Müəyyən "yol xəritəsi"ni, bəzi ardıcıllıqla məsələnin həlli mexanizmini ortaya qoyan Paşinyan əslində, insanlardan və siyasi qüvvələrdən 2021-ci ilin iyun ayına qədər möhlət istəyir. Bəzən isə elə təəssürat yaranır ki, o bunu hətta tələb edir. Bunu da ona görə edir ki, hakimiyyətdə qalıb-qalmayacağı sualını bu bir neçə ayın nəticələri ilə əlaqələndirə bilsin.

Hərdən elə gəlir ki, Ermənistanın baş naziri vaxt qazanmağa çalışır. Qazanacağı bu vaxtın isə onun xeyrinə işləyəcəyi qənaətindədir. Başqa sözlə, Nikol Paşinyan bütün bunların unudulacağına ümid edir. Ümid edir ki, zaman keçdikcə ona qarşı olan nifrət, ən azından aqressiya aradan qalxacaq və o da əvvəlki kimi öz vəzifəsində qalacaq.

Ən vacib məsələlərə gəlincə, Paşinyan müharibənin nəticələrinin aradan qaldırılması, iqtisadi inkişaf, ordu islahatı, demoqrafik vəziyyətin yaxşılaşdırılması və digər məsələlərdən guya bəhs edir, yenə də müsbət istiqamətlərdə vədlər verir. Hətta iddia edir ki, onun sadalanan məsələləri həll etməsinə müharibə mane olurmuş və ancaq bu istiqamətdə düşünürlərmiş. Əks halda, Paşinyan guya inkişafı təmin edəcəkmiş. Ancaq Ermənistan vətəndaşları da daxil olmaqla bir çox insanlar ona sual verə bilər ki, kreslolarından yapışan hazırkı hökumətin müharibədən əvvəl nə edəcəyini düşünməsinə nə mane olurdu?

Baş nazir populizmə üstünlük verdi bu iki il yarımda və bu da onun mətbuat konfranslarında belə öz əksini tapırdı. Yüzlərlə fakt nümunə kimi göstərilə bilər ki, bu da deyilənləri təsdiqləyir. Cəmiyyəti ağlara və qaralara belə bölən erməni baş nazir, ölkəsini parçalamaq üçün əldən ayaqdan getdi bu müddət ərzində parçalaya bildi də. Onun öz xalqına bu parçalanmanın müqabilində "bəxş etdiyi" isə, 2050-ci il üçün fantastik hədəflərdən bəhs edən quru boş vədlər oldu. Belə vədlərlə təmsil etdiyi toplumu aldadaraq yuxuya verirdi sanki. Real iş görmək, layihələr reallaşdırmaq əvəzinə, quru vədlər verilməsi, ən asan və Nikolun yeganə bacardığı yol hesab olunurdu. Baxmayaraq ki, real iş görə bilmirdi, vədlər də olsa verirdi Paşinyan. Bir sözlə, ölkənin problemləri gündəmə gətirilməsin deyə kütlə tovlanırdı. Deməli, bu vədlərin özü də daxili auditoriyaya heablanmışdı və Paşinyan tərəfindən hakimiyyətini qorumaq niyyəti ilə verilirdi.

İndi deyə bilərik ki, Paşinyan və onun komandasının sadəcə olaraq ölkəni idarə etmək gücündə olmadığını müharibə ifşa etdi. Müharibə erməni baş nazirinin bu cəmiyyət, bir zamanlar idarə etdiyi kütlə arasında da etibarının olmadığını isbatladı. Hazırda Ermənistanda olan etirazlar dalğası Nikol Paşinyana, onun hakimiyyət komandasına, hökumətinə olan münasibətin göstəricisi hesab oluna bilər. Bu münasibətin fonunda Nikol Paşinyan altı aylıq bir plan irəli sürürsə, deməli, bu adamın nə plan barədə, nə xilas barədə niyyəti yoxdur və məqsədi bacardıqca öz hakimiyyətini uzatmaq, kreslosunu qorumaqdır.

Müharibə zamanı minlərlə erməni hərbçisi, canlı qüvvə, hərbi texnika, silah-sursat və nəticə etibarı ilə külli miqdarda dövlət vəsaitlərinin itgisinə səbəb olan insan, sonuncu dəfə, otağından saatının, konyakının və ətirinin oğurlanmasına görə təəssüflənməsi ilə, bütün erməni cəmiyyətini tamamilə qıcıqlandırdı. Ədalət naminə deyək ki, ermənilər minlərlə erməni əsgərinin ölümü, itgisi fonunda öz ətirinə və konyakına görə daha çox heyfslənən birinə, bu ağılda, bu düşüncədə, bu saymazlıqda olan birinə etibar etməməkdə haqlıdırlar və yalnız elə bunda haqlıdırlar. Maraqlıdır, minlərlə erməni əsgərini, 30 il müddətində istehkam qurduğu əraziləri, külli miqdarda hərbi texnikanı, silahları 44 gün qoruya bilməyən bir uğursuz, bütün bunlardan məhrum olan, rəzil, səfalət içərisində olan ölkəsini altı ay müddətində dirçəltmək, inkişaf etmək gücü, imkanı bir tərəfə, iddiasında belə ola bilərmi? Xeyr, ola bilməz. Yenə də bəlli olur ki, 2018-ci ilin küçə nümayişçisinin, ölkəsini inkişaf etdirmək deyil, bircə niyyəti var, hakimiyyətini qoruyub saxlamaq, yaxud, ən azından bunu 5-6 ay uzatmaq. Bu da, onun adını inqlab qoyduğu, əslində isə hakimiyyət çevrilişi ilə zəbt etdiyi kreslosunu qorumaq ümidlərindən və hakimiyyət ehtirasından irəli gəlir.

***İnam Hacıyev***

## Tahir Kərimli: "Azərbaycan Qarabağ problemini köklü şəkildə həll edib"



"Azərbaycan özü Dağlıq Qarabağ məsələsini köklü şəkildə həll edib. Bu halda həmsədrlərin xüsusilə, ABŞ və Fransa diplomatlarının Moskvada Dağlıq Qarabağla bağlı nəyi müzakirə edəcəklər ki? ABŞ və Fransa çox narahatdırlar ki, Minsk Qrupunun həmsədrləri kimi, Qarabağ məsələsinin həllindən kənarda qalmışlar". Bunu "Səs" qəzetinə açıqlamasında Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli deyib.

Onun sözlərinə görə, Rusiya tərəfi özü təkbaşına Dağlıq Qarabağda sülhyaratma qüvvələrini yerləşdirib: "Əslində Rusiyanın özü, ABŞ və Fransa kənarda qoyub. Ona görə də, əlbəttə ki, onlar Moskvaya gələrək Dağlıq Qarabağ məsələsi ilə bağlı müzakirə etməklə onlar istəyəcəklər ki, bir qədər fəal qoşulsunlar və ikinci bir cəhətdən əlbəttə ki, gələrək Dağlıq Qarabağın statusun müəyyən edilməsi istiqamətində Rusiyanı təhrik etsinlər. Ancaq bildiyiniz kimi, Rusiyanın prezidenti Vladimir Putin açıq şəkildə bildirib ki, Dağlıq Qarabağ məsələsi Azərbaycanın öz işidir, onun ərazisidir. Oraya Türkiyəni və ya istənilən digər dövləti dəvət etməkdə Azərbaycanın suveren hüququdur. Yəni birmənalı şəkildə hamısına özü cavab verib. Qafqazda yeni konfequrasiya var. Bu konfequrasiya Rusiya, Türkiyə və Azərbaycan birliyindən keçir. Nə qədər ağrılı olsa da Azərbaycan özü hərbi yolla bu məsələni həll edir. Onlar həmişə deyirdilər ki, münaqişənin hərbi yolu yoxdur. İndi isə bunlar görürlər ki, hərbi həll yolu var. Azərbaycan Qarabağ problemini köklü şəkildə həll edib".

T.Kərimli bildirdi ki, Azərbaycan heç zaman deməyib ki, Dağlıq Qarabağda yaşayan erməniləri tamamilə rədd edəcək: "Ona görə də, hesab edirəm ki, indiki konfequrasiya tamamilə və eyni zamanda, üç tərəfli danışıqlar və münasibətlər ən optimal variantdır. Düşünmürəm ki, ABŞ, Fransa və Rusiyaya müəyyən təzyiqlər edəcəklər. Əlbəttə, bu təzyiq hər şeydən əvvəl Türkiyəni bir qədər kənara qoymaq, Azərbaycana qarşı isə Qarabağın statusunun müəyyən edilməsi məsələlərini aparmaqdır. Halbuki, Vladimir Putin birbaşa bildirdi ki, bu status məsələsi Ermənistan və Azərbaycan arasında yaxşı münasibətlər yaratdıqdan sonra baxıla bilər. İkinci bir məsələ var ki, Prezident İlham Əliyev birmənalı şəkildə bildirib ki, heç bir status məsələsi olmayacaq. Rusiyanın xarici işlər naziri deyib ki, Prezident İlham Əliyevin bu bəyanatı hesab edirəm ki, qarşı tərəfə mənfi münasibət göstərməyəcək, amma vəziyyət ortadadır, hər kəs reallıqla barışmalıdır və ömür boyu danışıqları uzadaraq, Azərbaycanı məğlubiyyətə barışdırmaq niyyətləri puça çıxıb, indi isə revanş götürmək istəyirlər, bütün bunlar əbəsdir".

***Gülyana***

## Andanik Tevanyan: "Belə bir ucuz hərəkət yalnız onun ağlına gələ bilərdi"



***"Mitinqə hərbi forma geyinmiş insanları çıxarıb onlara "Biz Nikol Paşinyana həyatlarımızı qurtardığına görə minnətdarıq" ifadəsinin dedizdirilməsi andından dövlət ölür. SİA xəbər verir ki, bu barədə özünün "Facebook" səhifəsində "Politekonomiya" araşdırmalar institunun rəhbəri Andranik Tevanyan yazıb. O, qeyd edib ki, Nikol Paşinyanın kapitulyasiya aktı artıq özü-özlüyündə məğlubiyyətin əsl səbəblərini ortaya çıxarıb.***

### "Hərbi forma geyinmiş insan necə ölümdən qorxa və kapitulyasiyanı müdafiə edə bilər?"

"Hakimiyyətə rəhbərlik etməsinə rəğmən o dərəcədə eqosentrik olmaq, dövləti sevməmək, öz canının hayına qalmaq, vəzifə barədə düşünmək lazımdır ki, Respublika meydanına gədə-güdələri yığıb kapitulyasiyanı təriflətdirəsən", yazan Andranik Tevanyan onu da sual edib ki, axı ölkəsini və dövlətçiliyini məğlubiyyətə, kapitulyasiyaya məruz qoyan, süquta uğradan liderin müdafiəsinə görə (hətta yüz nəfər olsa belə) dünyanın başqa hansı dövlətində belə bir mitinq keçirilə bilərdi? SİTAT: "Hərbi forma geyinmiş insan necə ölümdən qorxa və kapitulyasiyanı müdafiə edə bilər? Hətta qorxsa da belə, heç nəyə baxmadan belə bir halı təbliğ etmək doğru deyil, çünki hərbçilər vətənə görə həyatını qurban vermək üçün and içirlər".

### "Ermənistan boyu praktiki ölümcül zərbə almışıq"

Erməni politoloqu daha bir məqama toxunub və etiraflarda bulunub: "Bir çoxları hələ anlamırlar ki, biz yalnız "artsaxı" (dırnaqlar bizimdir) itirməmişik, həm də "ikinci erməni dövlətini" itirərək bütün Ermənistan boyu praktiki ölümcül zərbə almışıq. Bizim ordumuz 2020-ci ilin 27 sentyabrına qədər ən legitim dövlət strukturu idi. Əsas dövlət institutlarından biri idi ki, onun haqqında demək olar ki, heç bir şübhələr yaranmırdı. İndi bu institut dağılıb, bizim dövlətçiliyimizin legitimlik əsası ciddi zərbə alıb".

Andranik Tevanyan bildirib ki, Paşinyan tərəfindən hərbi forma geyindirilmiş insanlar vasitəsi ilə səhnələşdirilən kapitulyasiya mitinqi ordumuzun sonuncu qalan hissəsinə təhlükə yaradır. "Yeni dövlətimizin legitimliyinə. Belə bir ucuz hərəkət yalnız onun ağlına gələ bilərdi", erməni politoloqu bildirib.

***Rövşən RƏSULOV***

# Erməni vandalizmi sərhəd tanımır

*Qarabağın məhv edilən tarixi və talan edilən mədəniyyəti ermənilərin iç üzünü ortaya qoymaq üçün kifayətdir*






ARAŞDIRMA

Ermənilərin Balkanlar, Yaxın Şərq və Hindistan əraziləri arasında əsrlərlə köçəri həyat tərzi keçirdikdən sonra Qafqaza gəlmələri və burada özlərinə dövlət yaratmaları regionda aborigen xalqın tarix və mədəniyyətinin qədim izlərinin mümkün qədər çox silinməsi ilə paralel aparılıb. Azərbaycan xalqının tarixi-mədəni irsinin mənimsənilməsi, bu mümkün olmayanda isə silinməsi siyasəti 2 əsr davam edib. 1918-ci ildə Ermənistan dövləti yaradıldıqdan sonra oradakı Azərbaycan tarixi abidələri, mədəni irsi, tiponimləri, qədim yazılı daşlar, məzarlıqlar tamamilə məhv edildi. Bu iş sonralar- 1990-ci ildən etibarən işğal etdikləri Qarabağ bölgəsində də davam etdirildi.

### Ermənilərin Qafqazda "saxta tarix" istehsalı müəssisəsi

200 il əvvəldən (1805-Kürəkçay müqaviləsi) başlayaraq ermənilərin Şimali Azərbaycan ərazilərinə köçürülməsindən sonra azərbaycanlıların deportasiyası və soyqırımı faciələri başlandı. Gəlmə ermənilər azərbaycanlılara məxsus ərazilərdə məskunlaşdıqdan sonra onlara məxsus maddi-mədəniyyət nümunələrini məhv etməklə onların izlərini silməyə çalışmış, bu, mümkün olmadıqda isə həmin maddi-mədəniyyət nümunələrinin "qədim ermənilərə" aid olmaları barədə saxta tarix yazaraq dünya ictimaiyyətini aldatmağa başlamışlar.

Qarabağ vilayəti e.ə. IV əsrdən eramızın VIII əsrinin əvvəllərinədək Azərbaycan Alban dövlətinin, VIII-XII əsrlərdə Sacilər, Salarilər, Rəvvadilər dövlətlərinin, Səlcuq imperiyasının və Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin, XIII-XV əsrlərdə Elxanilər (Hülakilər), Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, 1501-1736-cı illərdə Azərbaycan Səfəvilər dövlətinin, 1748-1821-ci illərdə isə Qarabağ xanlığının tərkibində olub.

Bu bölgədəki bütün qədim tarixi abidələr, mədəniyyət nümunələri Azərbaycan xalqına aiddir. 200 il əvvələdək burada olmamış ermənilərin burada heç bir tarixi və mədəniyyəti yoxdur. Bunu ermənilər keçən əsrin 70-ci illərində Qarabağda ucaltdıqları özlərinin bu torpaqlara gəlişinin 150 illiyini göstərən abidə ilə etiraf ediblər.

Bu günlərdə işğaldan azad edilmiş Qarabağ ərazisində ermənilərin "saxta tarix" istehsal edən müəssisəsi aşkar olunub. Ermənilər həmin sexdə tarixi abidələr, daşlar üzərində iş aparır, yeni metodlarla qədim abidələr düzəldirmişlər. **(fotoya bax).**

Qədim hərflər və şəkillər, xaçlar daşlara çəkilir, döyülür və bir müddət sirkə həllində saxlanılır, Sirkənin təsirindən turşuma prosesi gedir və rəngini dəyişən "tarix nümunələri" qədim və köhnə görünüş qazanır.






Sonra bu daşları Qarabağ ərazisində basdıraraq özlərinin buradakı tarixi və mədəniyyəti kimi qələmə verirlər.

Məlumatlara görə, Ermənistanda da belə müəssisələr çoxdur və onlar son onilliklərdə müasir elmin də nailiyyətlərindən istifadə etməklə, xeyli "qədim erməni abidəsi" düzəldiblər.

### Qarabağın qədim tarix və mədəniyyət bazası

Qarabağ ərazisində e.ə. II minilliyə aid Xocalı-Gədəbəy mədəniyyətini özündə əks etdirən tarixi mədəniyyət abidələri vardır. Ermənistanın hərbi təcavüzü nəticəsində Şuşada Alban məbədləri, Şuşa Tarix-Memarlıq Qoruğuna daxil olan qala divarları, Qarabağ xanlarının iqamətgahları, Xurşidbanu Natəvanın ev muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, yüzlərlə tarixi-memarlıq və təbiət abidələri işğal altında qaldı.

Regionun erməni işğalçıları tərəfindən talan edilmiş muzeylərində Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəssamlıq və mədəniyyət əsərləri, dünya şöhrətli xalçalar, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar toplanmışdı. İşğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektləri məhv edilib. **(fotoya bax)**

Ələ keçirdikləri ərazilərdə 12 muzey, 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray qarət edilib və yandırılıb. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub. İşğal olunmuş ərazilərdə qalan 152 ibadət yeri, məbəd, o cümlədən 62 məscid erməni təcavüzünün qurbanına çevrilib. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma nümunələri məhv edilib.

*Ardı Səh. 15*

# Erməni vandalizmi sərhəd tanımır

*Qarabağın məhv edilən tarixi və talan edilən mədəniyyəti ermənilərin iç üzünü ortaya qoymaq üçün kifayətdir*




Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Əvvəli Səh. 14

Erməni terroru vandalizmi sərhəd tanımır, bu proses təkcə bizim xalqın qədim tarixi abidələrinin, mədəniyyət nümunələrinin dağıdılmasına yönəlməyib, erməni vandalları keçmiş Sovet xalqlarının Böyük Vətən Müharibəsinə həsr olunmuş ümumi qəhrəmanlıq tarixi abidələri olan monumentlərin məhv edilməsini də özünə rəva görüb. **(fotoya bax).**

### Azərbaycana azı 300 milyard dollarlıq zərər vurulub

Qarabağ bölgəsində və ətraf rayonlarda Azərbaycanın milli mədəniyyət ocaqlarına erməni təcavüzkarlarının vurduqları ziyanı dəqiq hesablamaq mümkün deyildir, çünki talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir.Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərləri, həmçinin yüzlərlə kənd və qəsəbə Ermənistan silahlı qüvvələri tərəfindən viran və talan edilib. Ağdam, Cəbrayıl və Füzuli şəhərlərinin bugünkü görünüşləri 1945-ci ildə ABŞ tərəfindən atom bombasları ilə dağıdılan yapon şəhərləri Xirosima və Naqasakini xatırladır.

İşğal altındakı ərazilərdəki Azərbaycanın yeraltı və yerüstü təbii və mədəni sərvətləri vəhşicəsinə talan edilərək Ermənistana daşınırdı. Ordumuzun qələbəsi sayəsində Azərbaycanın işğal edilmiş ərazilərində bu prosesə son qoyuldu, hərçənd bu ərazilərdə artıq tarix və mədəniyyət adına bir şey də qalmayıb, ermənilərin özününküləşdirdiyi bir neçə qədim alban monastrı xaric. Bu tarixi abidələr və məbədlər isə dağıdılıb. **(fotoya bax).**

### İşğal olunmuş ərazilərdə qalmış və talan edilmiş muzeylər

Tarix diyarşünaslıq muzeyi. Xankəndi şəhəri. Dövlət rəsm qalereyası. Xankəndi şəhəri. Şuşa tarix muzeyi. Şuşa şəhəri. Üzeyir Hacıbəyovun ev muzeyi. Şuşa şəhəri. Bülbülün ev muzeyi. Şuşa şəhəri. Azərbaycan xalçaçılıq və xalq tətbiqi sənəti Dövlət muzeyinin Şuşa filialı. Qarabağ Dövlət tarix muzeyi. Şuşa şəhəri. Qarabağ ədəbiyyat muzeyi. Şuşa şəhəri. Mir Möhsün Nəvvabın ev muzeyi. Şuşa şəhəri. Dövlət rəsm qalereyası. Şuşa şəhəri. Ağdam tarix diyarşünaslıq muzeyi. Ağdam şəhəri. Çörək muzeyi. Ağdam şəhəri. Qurban Primovun xatirə muzeyi. Ağdam şəhəri. Rahib Məmmədov adına döyüş şöhrəti muzeyi. Ağdam şəhəri. Ağdərə tarix diyarşünaslıq muzeyi. Ağdərə şəhəri. Füzuli tarix diyarşünaslıq muzeyi. Füzuli şəhəri, köməkçi fondun eksponatları. Xalq tətbiqi sənəti muzeyi. Füzuli şəhəri. Hadrut tarix diyarşünaslıq muzeyi. Hadrud şəhəri. Qubadlı tarix diyarşünaslıq muzeyi. Qubadlı şəhəri. Dövlət rəsm qalereyası. Qubadlı şəhəri. Laçın tarix diyarşünaslıq muzeyi. Laçın şəhəri. Dövlət rəsm qalereyası. Laçın şəhəri. Sarı Aşığın xatirə muzeyi. Laçın rayonu. Güləbird kəndi. Kəlbəcər tarix diyarşünaslıq muzeyi. Kəlbəcər şəhəri. Cəbrayıl tarix diyarşünaslıq muzeyi. Cəbrayıl şəhəri. Zəngilan tarix diyarşünaslıq muzeyi. Zəngilan şəhəri.

MEMARLIQ ABİDƏLƏRİ

| Abidənin adı | Tarixi | Yerləşdiyi ünvan |
|---|---|---|
| Qutlu Musa oğlu türbəsi | 1314-cü il | Ağdam rayonu, Xaçındərbətli kəndi |
| Gəncəsər monastırı | 1216-1238-ci illər | Kəlbəcər rayonu, Vəngli kəndi |
| Xudavəng monastırı | XIII əsr | Kəlbəcər rayonu, Vəng kəndi |
| 11-tağlı Xudafərin körpüsü | XI—XII əsrlər | Cəbrayıl rayonu, Qumlaq kəndi |
| 15-tağlı Xudafərin körpüsü | XIII əsr | Cəbrayıl rayonu, Qumlaq kəndi |
| Şuşa Tarix-Memarlıq Qoruğu | XVIII-XIX əsrlər | Şuşa şəhəri |

ARAŞDIRMA

### Ermənistanda məhv edilən Azərbaycan tarixi və mədəniyyəti

Ermənilər bu vandalizmi, tarix və mədəniyyətə terroru təkcə işğal etdikləri Qarabağ ərazisində deyil, həm də Ermənistanın özündə aparıblar. 1988-1989-cu illərdə Ermənistandan 250 minə yaxın azərbaycanlının deportasiya edilməsindən sonra orada azərbaycanlılara məxsus 223 qəbiristanlıq, 49 məscid, 68 tarixi-memarlıq abidəsi tədricən erməni vandalları tərəfindən səssiz-səmirsiz dağıdıldı.

Tarixi Azərbaycan ərazisi olan indiki Ermənistan ərazisində 1000-dən artıq azərbaycanlı yaşayış məntəqəsi, yüzlərlə tarixi-memarlıq abidələri, karvansaralar, imarətlər, məscidlər, mavzoleylər, məqbərələr, qəbiristanlıqlar, qəbirüstü abidələr və s. mövcud olub.

Təlcə bir faktı qeyd edək ki, XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 310 məscid qeydə alındığı halda, bu gün Ermənistan ərazisində yalnız 1 məscid- Göy məscid qismən salamat qalıb.

Ermənistan ərazisində azərbaycanlılara məxsus maddi-mədəni irsin məhv edilməsi və yer üzündən silinməsi prosesi bu gün də erməni vandalları tərəfindən davam etdirilir. Beynəlxalq təşkilatlar isə bütün bunları görmək, erməni işğalına və erməni vandalizminə "Dur!" demək istəmirlər.

***Elçin Bayramlı***

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

20 noyabr

Son səhifə


## Cüdoçumuz Avropa çempionatının yarımfinalında!

***Çexiyanın paytaxtı Praqada start götürən Avropa çempionatında cüdoçumuz Orxan Səfərov (66 kq) uğurla çıxış edərək yarımfinala vəsiqə qazanıb. Belə ki, qitə çempionatında ilk qarşılaşmalarda italiyalı Manuel Lombard, daha sonra slovakiyalı Matej Poliakı məğlub edən cüdoçumuz dörddəbir finalda serbiyalı Sebastian Seidl üzərində də qələbə qazanıb.***

Qeyd edək ki, qitə çempionatında Azərbaycanı ümumilikdə 14 idmançı təmsil edir. Avropa çempionatı noyabrın 21-dək davam edəcək.




## Ancelina Coli məhkəmədə keçmiş ərinə uduzdu



Hollivud aktrisası Ancelina Coli keçmiş əri aktyor Bred Pittlə məhkəmədə məğlub olub. Belə ki, aktrisa hakim Con Oderkirki boşanma prosesindən kənarlaşdırmaq istəyib. Ancaq buna nail ola bilməyib.

Bu barədə "Daily Mail" xəbər yayıb. Coli onların boşanma işinə baxan hakimin Pittin vəkilləri ilə işgüzar əlaqələrinin olmasına görə belə bir tələblə çıxış edib. Belə ki, Oderkirk əvvəllər aktrisanın keçmiş ərini təmsil edən vəkillik şirkəti ilə işləyib.

Bununla belə, Kaliforniya Ali Məhkəməsi qərarını verib: hakim ulduz cütlüyün boşanması üzərində işləməyə davam edəcək. Cütlüyə yaxın bir qaynaq, Colinin Oderkirki qərarlarını bəyənmədiyi üçün işdən uzaqlaşdırmaq istədiyini iddia edir. Hollivud ulduzu hakimin keçmiş ərinin vəkil komandasına kömək etdiyinə inanır./oxu.az

## 2 ağır yol qəzasında iki nəfər ölüb



Ötən gün ərzində törədilmiş 18 cinayətin üstü respublikanın daxili işlər orqanları tərəfindən "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 1 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 21 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 13 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında baş vermiş iki ağır yol-nəqliyyat hadisəsi nəticəsində iki nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 14 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 29 nəfər saxlanılıb.

## Yaşamaq üçün ən yaxşı şəhərlər açıqlandı

***"Resonance Consultancy" beynəlxalq məsləhət şirkəti növbəti dəfə "The World's 100 Best Cities" ("Dünyanın 100 ən yaxşı şəhəri") adlı reytinq cədvəlini açıqlayıb.***



Siyahıya Böyük Britaniyanın paytaxtı London liderlik edir. Növbəti yerlərdə Nyu-York (ABŞ), Paris (Fransa), Moskva (Rusiya), Tokio (Yaponiya), Madrid (İspaniya), Roma (İtaliya), Dubay (BƏƏ), Sinqapur (Sinqapur) və Barselona (İspaniya) şəhərləri qərarlaşıb. Bu şəhərlər yaşamaq, işləmək, sərmayə qoymaq və gəzmək üçün ən yaxşı şəhərlər hesab olunur.

Qeyd edək ki, "The World's 100 Best Cities" 2016-cı ildən müəyyən olunur. Bu zaman şəhərlər barədə statistik göstəricilər, sosial şəbəkə istifadəçilərinin rəyləri nəzərə alınır.

## Qırmızı düyü qanda şəkəri və xolesterini normallaşdırır

Qırmızı düyü qanda şəkərin və xolesterinin normallaşmasına kömək edir. "MedicForum" saytında yer alan məlumatda deyilir ki, qırmızı maya düyü bağırsağın fəaliyyətinə təsir etməklə xolesterini normallaşdırır.



Glisemik indeksə malik olan qırmızı düyü bağırsaqların fəaliyyətini yaxşılaşdırır, həzm prosesini normallaşdırır, xolesterinin qana keçməsinə maneçilik törədən sellüloz vasitəsilə orqanizmi şlaklardan təmizləyir. Bu o deməkdir ki, qırmızı düyü qanda şəkərin səviyyəsinin tez-tez qalxıb düşməsinə imkan vermir.

Bundan əlavə, qırmızı düyü aclığı tez yatırır, uzunmüddətli toxluq hissini qoruyur və diabet xəstələrində problemlər yaradan çəki artımının qarşısını alır. O cümlədən, qırmızı maya düyü artıq mayenin xaric olunmasına kömək etməklə yanaşı, tərkibində olan dəmir vasitəsilə orqanizmdə anemiyanın inkişaf riskini azaldır.

## Azərbaycan neftinin qiyməti 45 dollara çatır



Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 1,36 dollar artaraq 44,85 dollar təşkil edib. Qeyd edək ki, Azərbaycan neftinin bir barrelinin qiyməti bu il aprelin 21-də minimuma enərək 15,81 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.

## Dolların bu günə olan məzənnəsi

Azərbaycan Mərkəzi Bankı (AMB) noyabrın 20-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən xezerxeber.az-a bildirilib ki, bankın noyabrın 20-dən etibarən USD/AZN rəsmi məzənnəsi 1,7000 manat səviyyəsində müəyyən olunub.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**